# 11 aprel – Növbədənkənar Azərbaycan Respublikası Prezidenti Seçkiləri Günüdür




# GÜNDOĞAR

14 fevral 2018-ci il № 3 - 4 - 5 - 6 (6667)

İCTİMAİ-SİYASİ QƏZET

Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az


## PREZİDENT İLHAM ƏLİYEV: 2004-cü İLİN ƏVVƏLLƏRİNDƏ QƏBUL EDİLMİŞ PROQRAM DEMƏK OLAR Kİ, AZƏRBAYCANIN REGİONLARINDA DÖNÜŞ YARATDI



Yanvarın 29-da Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransdakı giriş nitqində Prezident İlham Əliyev bu məsələyə aydınlıq gətirərək dedi: "Mən 2003-cü ildə prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, əgər Azərbacan xalqı mənə etimad göstərərsə, ilk növbədə Azərbaycan regionlarının problemləri ilə məşğul olacağam. Söz vermişdim ki, Azərbaycan regionlarında sosial-iqtisadi inkişaf sürətlə gedəcək. Son 14 il ərzindəki reallıqlar bunu göstərir ki, verilən bütün vədlər artıqlaması ilə yerinə yetirildi. Son 14 il ərzində Azərbaycan böyük və şərəfli yol keçmişdir. Ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atmışdır."

Doğrudan da belədir. Dövlət başçısının konfransdakı nitqini dinləyəndə adamın qəlbi qürur hissilə döyünür. 14 il tarix üçün çox da böyük vaxt deyil, qısa zaman kəsiyidir. Amma bu qısa vaxtda, bu qısa zaman kəsiyində ölkəmizdə, xüsusilə onun regionlarında o qədər böyük işlər görülüb ki, bunlardan sevinməmək, qürur duymamaq mümkün deyil.

Prezident İlham Əliyevin sözlərindən aydın oldu ki, bu müddətdə Azərbaycanın valyuta ehtiyatları 23 dəfə artıb, ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulub, iqtisadiyyat 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı 2,8 dəfə artıb. 14 il ərzində 12 min 300 kilometrdən çox yolun çəkilməsi, 443 körpünün, 3100-dən çox məktəbin, 642 tibb müəssisəsinin, 43 Olimpiya İdman Kompleksinin, 30 elektrik stansiyasının, 4 su anbarının tikilərək istifadəyə verilməsi, 7 beynəlxalq aeroportun yenidən qurulması qürurverici reallıqlardır. Bununla yanaşı respublikamızda qazlaşma 93 faizə çatıb, bütün şəhərlərdə isə bu təminat 100 faizdir. Fasiləsiz içməli su təminatı 26 faizdən 67 faizə yüksəlib. 1,4 milyonu daimi olmaqla 1,9 milyon yeni iş yerlərinin yaradılması, maaşların 5, pensiyaların 8 dəfədən çox artırılması, sahibkarlara güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditin verilməsi, 265 min köçkünün yeni evlərlə, mənzillərlə təmin olunması xalqın, insanların maddi rifah halının yüksəlməsinə, sosial məsələlərin, problemlərin həllinə yönələn kompleks tədbirlərdir.

Bütün sahələrdə əsl dinamika mövcuddur. İctimai həyatımızın elə bir sahəsi yoxdur ki, orada yüksək inkişaf, tərəqqi diqqəti cəlb etməsin. Dövlətimizin başçısının dediyi kimi ölkə iqtiadiyyatının son 14 ildə 3,2 dəfə artması dünya miqyasında rekord göstəricidir. Qeyri-neft iqtisadiyyatının 2,8 dəfə yüksəlməsi isə vaxtı ilə bu artımın neftin hesabına olduğunu söyləyənlərə ən tutarlı, təkzibolunmaz cavabdır. Bu müddətdə ölkəmizdə böyük gəmiqayırma zavodunun inşa olunması, uzaq Asiyanı Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi böyük nailiyyətdir. Xəzər hövzəsində ən böyük beynəlxalq müəssisənin — Ələt Dəniz Ticarət Limanının bu il istifadəyə verilməsi yükdaşımaların dövriyyəsini daha da genişləndirməyə imkan verəcəkdir. Əgər Azərbaycan 2004-cü ilə qədər xaricdən elektrik enerjisi idxal edirdisə, bu gün özü xaricə enerji ixrac edir. Enerji isə gücümüz, qüvvəmizdir. Buraya Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz boru kəmərlərini, "Şimal-Cənub Nəqliyyat Dəhlizi"ni, "Cənub Qaz Dəhlizi" layihələrini və digər tarixi layihələri də əlavə etsək, onda hansı möhtəşəm qələbələrin əldə olunduğunu daha aydın şəkildə təsəvvür etmək olar.

Əldə olunan uğurlar, nailiyyətlər nə qədər böyük olsa da qarşıda duran vəzifələr ondan da böyük, ondan da geniş, ondan da əhəmiyyətlidir. Prezident İlham Əliyevin yekun nitqində açıqladığı hədəflər bunu aydın şəkildə göstərdi. Məlum oldu ki, bu il 20 şəhərdə içməli su və kanalizasiya layihələri icra olunmalı, 300 subartezian quyusu qazılaraq istifadəyə verilməli, qazlaşdırma 95 faizə çatdırılmalıdır. 2300 kilometr avtomobil yollarının çəkilməsi, ən azı 600 kəndin yolunun qaydaya salınması, 100 min hektar suvarılmayan torpaqlara su çıxarılması, 6 şəhərdə yeni rayon mərkəzi xəstəxanalarının tikintisi başa çatdırılmaqla 2 rayonda mərkəzi xəstəxanaların inşası davam etdirilməli, 7 min ailə özünüməşğulluq proqramına cəlb edilməlidir. Eyni zamanda aydın oldu ki, "SOKAR Polymer" və gübrə zavodlarının açılışları, Qəbələ şəhərinə dəmir yolunun çəkilişi, MİDA-nın Yasamal layihəsində evlərin bir hissəsinin təqdim edilməsi, Ələt Dəniz Ticarət Limanının tikintisi, Mingəçevir Yüngül Sənaye Parkının ilk zavodlarının, 10 yeni xalça fabrikinin, Masallı, Hacıqabul, Sabirabad sənaye məhəllələrinin açılışları da bu ilin əsas hədəfləri, istiqamətləridir. Onların təntənəli açılışları da yaddaşlarımızda çox mühüm hadisələr kimi qalacaqdır.

Əgər ölkəmizdə təhlükəizlik, sabitlik, işgüzar şərait yaradılmasaydı, şübhəsiz ki, belə böyük uğurlara nail ola bilməzdik. Əmin-amanlığın, sabitliyin, təhlükəsizliyin arxasında isə düzgün siyasət, iqtidar-xalq birliyinin təmin olunması dayanır. Əlverişli biznes mühiti ölkəmizin beynəlxalq aləmdəki nüfuzunu durmadan artırır, respublikamızda həyata keçirilən siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək dəyərləndirilir. Bütün bunlara baxmayaraq dövlətimizin başçısı vurğuladı ki, qazanılmış nailiyyətlərdən arxayınlaşmaq olmaz. Daim irəliyə, önə baxmalı, qarşıya qoyulan vəzifələrin vaxtında yerinə yetirilməsi üçün səylər daha da birləşdirilməlidir.

## Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq qərara alıram:

1. Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri elan edilsin.
2. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin 2018-ci il aprelin 11-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 fevral 2018-ci il.**

## Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin 2018-ci il aprelin 11-də növbədənkənar prezident seçkilərində namizədliyinin irəli sürülməsi barədə Yeni Azərbaycan Partiyasının VI qurultayının qərarı:

Yeni Azərbaycan Partiyasının fevralın 8-də Heydər Əliyev Mərkəzində keçirilən VI qurultayı Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətli sosial-iqtisadi inkişafını, dövlətçilik ənənələrinin və demokratik təsisatlarının gücləndirilməsini, ölkənin beynəlxalq nüfuzunun və müdafiə qabiliyyətinin ciddi şəkildə möhkəmləndirilməsini, habelə Prezident İlham Əliyevin şəxsində Azərbaycanın inkişaf perspektivlərinə etibarlı təminatı nəzərə alaraq və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 54-cü maddəsinə istinad edərək qərara alır:

**İlham Heydər oğlu Əliyev 2018-ci il aprel ayının 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində Azərbaycan Respublikasının prezidentliyinə namizəd irəli sürülsün.**

## Konfransda Neftçala Sənaye Məhəlləsinin direktoru Nəriman XƏLİLOV çıxış edərək dedi:

**- Möhtərəm cənab Prezident.**

Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyasının, cənab Prezident, Sizin tərəfinizdən uğurla həyata keçirilməsi nəticəsində ölkəmizin qeyri-neft sənayesi dinamik inkişaf edir, qabaqcıl texnologiyalara əsaslanan yeni istehsal və emal müəssisələri yaradılır. Hazırda bu istiqamətdə aparılan işlər ölkənin bütün regionlarında olduğu kimi, Neftçala rayonunda da uğurla davam etdirilir.

Möhtərəm cənab Prezident, Sizin böyük diqqət və qayğınız nəticəsində son illər Neftçala rayonu özünün yeni inkişaf mərhələsini yaşayır, rayonda sosial, iqtisadi və infrastruktur layihələri icra edilir. Bütün Neftçala sakinləri 2017-ci il sentyabrın 24-də Sizin rayonumuza etdiyiniz tarixi səfəri əlamətdar, unudulmaz gün kimi xatırlayır. Xüsusilə açılışını etdiyiniz Neftçala Sənaye Məhəlləsinin yaradılması rayonumuzla yanaşı, ətraf bölgələrdə də sənayenin sürətli inkişafına və əhalinin məşğulluğunun artırılmasına təkan verib. Bütün bunlara görə, cənab Prezident, Neftçala ictimaiyyəti Sizə öz məhəbbətini və dərin hörmətini bildirir.

Cənab Prezident, Sizin 2015-ci il 2 fevral tarixli Sərəncamınıza uyğun olaraq, ölkəmizdə ilk sənaye məhəlləsi də məhz Neftçalada yaradılıb. On hektar ərazini əhatə edən Neftçala Sənaye Məhəlləsində dövlət vəsaiti hesabına sənaye məhsullarının istehsalı və müvafiq xidmətlərin göstərilməsi üçün bütün zəruri infrastruktur - elektrik enerjisi, təbii qaz, rabitə-internet, su-kanalizasiya sistemi qurulub, müasir istehsalat blokları tikilərək sahibkarların istifadəsinə verilib. Sənaye Məhəlləsinin inzibati binasında sahibkarlara ümumi mühasibatlıq, hüquqi məsləhətlər, sığorta və poçt xidmətləri göstərilir, eləcə də texniki kitabxana və "startap"lar üçün ofis fəaliyyət göstərir. Neftçala Sənaye Məhəlləsinin bütün ərazisi ödənişsiz internetlə təmin olunub.

Hazırda Neftçala Sənaye Məhəlləsində layihələrinin ümumi dəyəri 45 milyon manat təşkil edən 9 rezident, o cümlədən avtomobil, balıq yemi və digər yemlər, balıq konservləri, plastik məmulatlar, suvarma sistemləri, polietilen suvarma boruları və modul tipli məktəb binaları üçün konstruksiyalar istehsalı və digər sahələr üzrə məşğul olan sahibkarlar fəaliyyət göstərirlər. Məhəllədə, həmçinin kiçik sahibkarlar üçün emalatxanalar da yaradılıb.

Bu layihələr üzrə 4 müəssisəyə verilmiş investisiya təşviqi sənədi əsasında sahibkarlar 3,5 milyon manat vəsaitə qənaət edib, 2 müəssisəyə 6,5 milyon manat güzəştli kredit verilib və Sənaye Məhəlləsində ümumilikdə 500-ə yaxın daimi iş yerinin açılması üçün zəmin yaranıb.

Yeni layihələrin həyata keçirilməsi məqsədilə sahibkarların artan müraciətlərini nəzərə alaraq, Neftçala Sənaye Məhəlləsinin ərazisinin genişləndirilməsi nəzərdə tutulur.

Möhtərəm cənab Prezident, Sizin rəhbərliyinizlə uğurla həyata keçirilən sənayeləşmə siyasətinin tərkib hissəsi olan sənaye məhəllələrinin yaradılmasının çox böyük əhəmiyyəti var. Bu, regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, yerli ehtiyatlardan səmərəli istifadə yolu ilə sənaye sahələrinin inkişaf etdirilməsinə, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılmasına, sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsinə, məşğulluqda sənayenin xüsusi çəkisinin artırılmasına, idxalın əvəzlənməsinə, yerli məhsulun daxili və xarici bazarlara çıxarılmasına geniş imkanlar yaradır.



Ölkədə ilk sənaye məhəlləsinin Neftçala rayonunda yaradılması ilə bağlı qərarınıza və onun fəaliyyətini daim diqqətdə saxladığınıza görə, Sizə bir daha minnətdarlığımızı bildiririk. Sizi əmin edirik ki, əməli fəaliyyətimizlə dövlətimizin davamlı inkişafına töhfə vermək üçün bütün səylərimizi səfərbər edəcəyik.

Diqqətinizə görə minnətdaram.

## İlham Əliyev növbəti seçki yarışına sözlə yox, əməli işlə, paytaxtlı-regionlu bütövlükdə çiçəkləndirdiyi yeni Azərbaycanla gedir

Bəli, bu gün ölkəmiz doğrudan da çox mühüm siyasi kampaniya ərəfəsindədir. Dövlət başçısı cənab İlham Əliyevin 5 fevral 2018-ci il tarixli sərəncamına əsasən aprelin 11-də respublikamızda növbədənkənar prezident seçkiləri keçiriləcəkdir. Yəqin ki, bu yüksək postu tutmaq üçün namizədliklərini irəli sürənlər, dövlət başçısı vəzifəsinə iddialı olanlar da olacaq. Amma onlar son 14 il müddətində Azərbaycanı dünyada söz sahibinə çevirən, onun reytinqini, nüfuzunu ildən-ilə ucaldaraq yüksəldən, paytaxtlı-regionlu ölkəmizin bütövlükdə tərəqqisinə nail olan, misilsiz tarixi xidmətlərilə xalqının, millətinin dərin nüfuzunu qazanan Prezident İlham Əliyevin yanında çox kiçik, cılız görünəcəklər. Qarşıdakı prezident seçkilərində bu Ali şəxsə rəqib ola biləcək ikinci bir şəxs yoxdur. Xalqın böyük əksəriyyəti Prezident İlham Əliyevi dəstəkləyir və yəqin aprelin 11-də də bu dəstəyi, yüksək etimadı aydın şəkildə görəcəyik.

Yüz minlərlə, milyonlarla insanın taleyüklü bu məsələnin həllində yekdil olması heç də təsadüfi deyil. Son illər dünyanı bürüyən qlobal maliyyə böhranı və dərin iqtisadi çətinliklər şəraitində də Azərbaycanın inkişaf edərək uğurlar qazanması inkarolunmaz faktdır. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən köklü yeni islahatlar kursu respublika iqtisadiyyatının bütün sahələrində, xüsusilə qeyri-neft sektorunda böyük canlanma yaradıb. Dövlət başçısının dediyi kimi 2016-cı il dərin islahatlar dövrü, 2017-ci il isə sürətli islahatlar mərhələsi kimi qalıb yaddaşımızda. Qarşıdan isə daha böyük nailiyyətləri özündə yaşadacaq illər gəlir. Bu gün işlənərək hazırlanan layihələrin, proqramların 2030-cu ilədək hesablandığını, hədəfləndiyini nəzərə alsaq, onda sabahın uğurlarının, qələbələrinin miqyasını daha aydın şəkildə təsəvvür etmək olar.

Bəs seçkidə iştirak edəcək digər "siyasətçilər" bu çətin yarışa hansı "nailiyyətlərlə" gedəcəklər? Yəqin ki, heç bir reallığa söykənməyən boş vədlərlə, hay-küylə. Ancaq hay-küy dövrü keçib, çoxdan keçib. İndi xalq boş sözə, söhbətə yox, gördüklərinə, reallığa inanır. Yəqin aprelin 11-də bunu bir daha görəcəyik. Özü də cənab İlham Əliyevin qələbəsini təkcə biz yox, keçirilən bütün sosioloji sorğular, dünyanın tanınmış siyasətçiləri, ekspertləri də təsdiqləyirlər.

# Növbədənkənar prezident seçkiləri qarşısında

## ƏLİ HƏSƏNOV: NÖVBƏDƏNKƏNAR SEÇKİLƏRİN KEÇİRİLMƏSİ HAQQINDA SƏRƏNCAM KONSTİTUSİYANIN VƏ ÖLKƏ QANUNVERİCİLİYİNİN TƏLƏBLƏRİNƏ TAM UYĞUNDUR

**Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamını AZƏRTAC-a şərh edib.**



Əli Həsənov bildirib ki, bu günədək Azərbaycanda bütün seçkilər Konstitusiya normalarına, Seçki Məcəlləsinə və digər aidiyyəti qanunvericilik aktlarına uyğun olaraq demokratik, şəffaf və ədalətli şəkildə keçirilib. İstər prezident, istər parlament, istərsə də bələdiyyə seçkiləri xalqın iradəsini əks etdirib, həmçinin yerli və beynəlxalq müşahidəçilər tərəfindən yüksək qiymətləndirilib.

Bilirsiniz ki, Azərbaycanda hər 5 ilin 3 ili seçkilərlə bağlı olduğundan Konstitusiyanın 101-ci maddəsinə dəyişiklik edildi və dövlət başçısının səlahiyyət müddəti 5 ildən 7 ilə uzadıldı. Prezidentin səlahiyyət müddəti 7 il müddətinə uzadıldığına görə, Azərbaycan Respublikası Prezidentinin seçicilərə etimad votumu üçün müraciət imkanı - növbədənkənar prezident seçkilərini elan etmək hüququ verilib. Buna görə də "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" sərəncamda nəzərdə tutulmuş məsələlər Konstitusiyanın və ölkə qanunvericiliyinin tələblərinə tam uyğundur.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq 2018-ci il prezident seçkilərinin payızda - oktyabr ayında keçirilməsi nəzərdə tutulmuşdu. Ancaq bu il may ayından başlayaraq ölkəmizdə çoxlu sayda mühüm yerli və beynəlxalq səviyyəli tədbirlər keçiriləcəkdir. Onların sırasında Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi çərçivəsində silsilə tədbirləri, Beynəlxalq Humanitar Forumu və digərlərini qeyd etmək olar. Həmin tədbirlərin əksəriyyəti ilin sonuna təsadüf edir və seçkilərlə üst-üstə düşür. Digər tərəfdən, Azərbaycanda mövcud olan praktikaya əsasən, bütün seçkilər payız aylarında keçirilir. Bu mənada, dünyada mövcud olan təcrübəni nəzərə almaqla, müxtəlif səviyyəli seçkilərin ilin ayrı-ayrı fəsillərində, o cümlədən də əvvəlində keçirilməsi daha məqsədəuyğundur.

Həmçinin Azərbaycan Prezidentinin 7 il müddətinə seçilməsi prezident səlahiyyətlərinin yerinə yetirilməsinə təsərrüfat ilinin əvvəlindən başlamasını təmin edir. Bu da sosial və iqtisadi sahədə qarşıda duran vəzifələrin daha effektli icrasına əlavə imkan yaradır.

Əli Həsənov deyib ki, ötən dövr ərzində Prezident İlham Əliyevin yürütdüyü müstəqil siyasət Azərbaycanın milli maraqlarına xidmət edib, ölkənin hərtərəfli və sürətli inkişafı təmin olunub, cəmiyyət həyatının bütün sahələri yeniləşib və müasirləşib, xalqın rifahı yüksəlib. Bu gün Azərbaycan beynəlxalq birliyin böyük nüfuza malik ölkələrindən biri kimi tanınır. Bütün bunlar Azərbaycan xalqının, vətəndaşların, seçicilərin Prezident İlham Əliyevə yüksək etimadını və tam dəstəyini şərtləndirən başlıca amillərdir. Əminliklə demək olar ki, cənab İlham Əliyevin seçkilərdə növbəti dəfə parlaq qələbə qazanmaq və yenidən prezident seçilmək imkanı çox yüksəkdir.

Nəticə etibarilə, seçkilərin oktyabrda və ya apreldə keçirilməsi potensial namizədlərin, o cümlədən də cənab İlham Əliyevin imkanlarını məhdudlaşdıran və onlara əlavə dividend qazandıran hal kimi şərh oluna bilməz.

## HAZIRLIQ İŞLƏRİ GENİŞLƏNİR

Seçmək və seçilmək insanın konstitusiya hüququdur. Dünyanın bütün demokratik ölkələrində bu hüquq aydın şəkildə təsbit olunmuş, seçkiləri həyata keçirmək üçün müvafiq qurumlar yaradılmışdır. Azərbaycan da tam demokratik ölkədir. Respublikamızın da demokratik prinsiplərə əsaslanan Konstiutsiyası, bu Konstitusiyaya əsaslanan qanunları vardır. Ölkənin Seçki Məcəlləsi, seçkiləri həyata keçirən əsas qurum — Mərkəzi Seçki Komissiyası da, onun yerlərdəki təşkilatları da məhz bu prinsiplər əsasında yaradılmışdır və bu demokratik prinsiplər əsasında fəaliyyət göstərirlər. Ötən prezident, parlament, bələdiyyə seçkilərinin, ümumxalq referendumlarının dünya standartları səviyyəsində keçirilməsi, onların nəticələrinin aparıcı beynəlxalq təşkilatlar tərəfindən layiqincə qiymətləndirilməsi, dəyərləndirilməsi də məhz bununla bağlıdır.

Yenə mühüm siyasi kompaniya — prezident seçkiləri ərəfəsindəyik. Dövlət başçısı cənab İlham Əliyevin 5 fevral 2018-ci il tarixli sərəncamına əsasən aprelin 11-də növbədənkənar Azərbaycan Respublikası Prezidenti Seçkiləri keçirilməlidir. İndi bununla əlaqədar ölkəmizin hər yerində olduğu kimi rayonumuzda da geniş hazırlıq işləri həyata keçirilir. Sərəncama əsasən seçkinin keçirilməsi Mərkəzi Seçki Komissiyasına həvalə olunduğundan onun Neftçaladakı qurumu kimi bizim də üzərimizə böyük məsuliyyət düşür. Biz də üzərimizə düşən vəzifənin məsuliyyətini dərindən dərk edirik və işimizin öhdəsindən layiqincə gəlmək üçün səylərimizi durmadan artırırıq. Seçkilərə rəsmi start bu günlərdə verilsə də, hazırlıq işlərinə xeyli əvvəldən başlamışıq. İstər dairə, istərsə də məntəqə seçki komissiyalarında ardıcıl iş gedir. Seçkilərin normal keçirilməsində seçici siyahılarının rolu mühüm əhəmiyyət kəsb etdiyindən bu vacib iş daim diqqət mərkəzindədir. Onları bir daha nəzərdən keçirir, dəqiqləşdiririk. Seçici siyahılarının dəqiqləşdirilməsində rayon polis şöbəsi, rayon qeydiyyat şöbəsi və SHXÇDX-nin rayon şöbəsi də bizə yaxından köməklik göstərir. Hazırkı məlumata görə dairəmizə daxil olan 41 seçki məntəqəsində 41 mindən artıq seçici var. Biz müvafiq qurumların köməyi ilə seçici siyahılarının dəqiqləşdirilməsini bundan sonra da ardıcıllıqla davam etdirəcəyik, bildirişlərin seçicilərə vaxtında çatdırılması üçün lazımi tədbirlər görəcəyik.

Səsvermənin normal keçməsi üçün seçki məntəqələrində yaradılan şərait də çox vacibdir. Bu sahədə də tədbirlər həyata keçirilir. Məntəqələr tamamilə yendən qurulur, lazımi avadanlıqlarla təmin olunur, telefon, elektrik xətlərindəki nasazlıqlar aradan qaldırılır. Bütün məntəqələr elektrik generatorları ilə təmin olunmuşdur. Qalan işlər də çox qısa vaxtda yerinə yetirilməklə məntəqələr səsverməyə tam hazır vəziyyətə gətiriləcəkdir.

Bütün sahələrdə olduğu kimi, prezident seçkilərinə hazırlıqda da maarifləndirmə tədbirləri ön planda olacaqdır. Əvvəlki seçkilərdə Mərkəzi Seçki Komissiyasının respublikamızın paytaxtında dairə seçki komissiyaları üçün təşkil etdiyi kurslar, treninqlər bizim üçün çox faydalı olmuşdur. Biz bir sıra mühüm yenilikləri, bilmədiyimiz bəzi məsələləri məhz bu tədbirlərdə öyrənmişik və buna müvafiq olaraq özümüz də rayonda məntəqə seçki komissiyalarının sədrləri və digər müvafiq şəxslər üçün ixtisaslaşdırılmış kurslar təşkil etmişik. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında" 27 dekabr 2011-ci il tarixli sərəncamından irəli gələn vəzifələr bu kursların əsas qayəsini təşkil etmişdir. Biz işlərin daha yaxşı təşkilinə kömək edən belə maarifləndirici tədbirləri bu il də davam etdirəcəyik.

Qarşıda çox mühüm vəzifələr durur. Bu vəzifələr Mərkəzi Seçki Komissiyasının 6 fevral 2018-ci il tarixli qərarı ilə təsdiq olunmuş Növbədənkənar Azərbaycan Respublikası Prezidenti Seçkilərinin Hazırlanıb Keçirilməsi üzrə Əsas Hərəkət və Tədbirlərin Təqvim Planında aydın və ardıcıl şəkildə göstərilmişdir. Seçkini həyata keçirən bütün təşkilatlar kimi biz də gündəlik fəaliyyətimizi bu təqvim planı əsasında quracağıq. Çalışacağıq ki, nəzərdə tutulan bütün tədbirlər vaxtında, qanunamüvafiq şəkildə həyata keçirilsin, seçkilərin demokratikliyi, Seçki Məcəlləsinin tələbləri bütün sahələrdə təmin olunsun.



**Şaiq MƏMMƏDOV,**
**61 saylı Neftçala Dairə Seçki Komissiyasının sədri**

## 61 SAYLI NEFTÇALA SEÇKİ DAİRƏSİNDƏ NÖVBƏDƏNKƏNAR PREZİDENT SEÇKİLƏRİ ÜZRƏ KEÇİRİLƏCƏK SEÇKİ MƏNTƏQƏLƏRİNİN DİSLOKASİYASI

**1 saylı Neftçala şəhər seçki məntəqəsi**

Məntəqə Neftçala şəhər N.Gəncəvi adına 3 saylı tam orta məktəbində yerləşir. Məntəqəyə H.Əliyev prospektindəki 60b və 39, M.Əsədov küçəsindəki 60 saylı evdən, S.Vurğun küçəsindəki 70 saylı evdən, E.Bağırov küçəsindəki 62 saylı evdən axıra kimi, 28 May və R.Rza küçələrindəki yaşayış evləri daxildir.
Tel: 3-22-28, 055-858-54-21

**2 saylı Neftçala şəhər seçki məntəqəsi**

Məntəqə Neftçala şəhəri 2 saylı klubda yerləşir. Məntəqəyə M.Ə.Sabir və S.Bayramov küçələrindəki yaşayış evləri daxildir.
Tel: 3-42-11, 051-439-94-49

**3 saylı Neftçala şəhər seçki məntəqəsi**

Məntəqə Neftçala şəhər X.Məmmədov adına Mədəniyyət və İncəsənət Sarayında yerləşir. Məntəqəyə H.Cavid, Babək küçələrindəki, H.Əliyev prospektindəki 9, 10, 11, 11A, 12, 13 və 15, 15A, M.Ə.Rəsulzadə küçəsindəki 5, 6, 12, 12A, 12B, 16, 16A, 43 və 45 saylı binalar daxildir.
Tel: 3-15-91, 050-350-70-16

**4 saylı Neftçala şəhər seçki məntəqəsi**

Məntəqə Neftçala şəhər Uşaq İncəsənət Məktəbində yerləşir. Məntəqəyə E.Bağırov küçəsindəki 1-62, M.Əsədov küçəsindəki 2, 3, 5, 35-61, H.Əliyev prospektindəki 1, 3, 5, 7, M.Qorki küçəsindəki 2, "20 Yanvar" küçəsindəki 1, Kimyaçılar şəhərciyindəki 1, 18, S.Vurğun, Y.Hacıyev küçələrindəki evlər daxildir.
Tel: 3-14-73, 050-493-08-36

**5 saylı Neftçala şəhər seçki məntəqəsi**

Məntəqə Neftçala şəhər E.Həbibov adına 4 saylı tam orta məktəbində yerləşir. Məntəqəyə A.A.Bakıxanov, M.P.Vaqif, S.Rəhimov, "20 Yanvar", X.B.Natəvan, M.Hadi, Z.Məcidov, M.Ə.Rəsulzadə küçələrindəki 17-45, H.Aslanov, A.Mütəllimov 3-dən küçənin sonuna kimi, "20 Yanvar" 3, 14, H.Əliyev prospekti 2-24, 30, 32, 34, 36, 38, 40, 42, 46, 48, 50, 52, 54, Kimyaçılar şəhərciyindəki 19-22 saylı binalar daxildir.
Tel: 3-13-15, 055-325-06-95

**6 saylı Neftçala şəhər seçki məntəqəsi**

Məntəqə Neftçala şəhər Folklor evində yerləşir. Məntəqəyə A.Mütəllimov küçəsindəki 1-2, M.Əsədov küçəsindəki 1A, 4, 9, 11, 13 saylı binalar, Ü.Hacıbəyov 1B, 10, 12, 14, 16, köhnə qəsəbədəki X.Cəfərov, M.Ə.Rəsulzadə 1-16, C.Abdullayev və M.Müzəffərov küçələrindəki yaşayış evləri daxildir.
Tel: 3-15-31, 051-897-98-43

**7 saylı Neftçala şəhər seçki məntəqəsi**

Məntəqə Neftçala Suvarma Sistemləri İdarəsinin binasında yerləşir. Məntəqəyə Z.Sadıqov küçəsi və 7-ci məhəllədəki yaşayış evləri daxildir.
Tel: 3-17-80, 051-928-96-76

**8 saylı Neftçala şəhər seçki məntəqəsi**

Məntəqə Neftçala şəhər Ə.Piriyev adına şəhər 2 saylı tam orta məktəbində yerləşir. Məntəqəyə 5-ci və 6-cı məhəllənin yaşayış evləri daxildir. Tel: 3-36-41, 070-936-67-11

**9 saylı Həsənabad qəsəbə seçki məntəqəsi**

Məntəqə Həsənabad qəsəbə Ş.Orucov adına tam orta məktəbində yerləşir. Məntəqəyə Sahil, A.Dadaşov, N.Gəncəvi, S.Vurğun, N.Nərimanov, M.Füzuli, M.Ə.Rəsulzadə, N.Ağahüseynov küçələrindəki yaşayış evləri daxildir.
Tel: 66-2-44, 050-683-53-75

**10 saylı Həsənabad qəsəbə seçki məntəqəsi**

Məntəqə Həsənabad qəsəbə N.Ağahüseynov adına uşaq bağçasında yerləşir. Məntəqəyə V.Məmmədov, M.Ə.Sabir, Koroğlu, "20 Yanvar", H.Z.Tağıyev və Z.Məcidov, H.Hacıyev, Ş.Orucov və Q.Babayev küçələrindəki yaşayış evləri daxildir.
Tel: 66-2-58, 050-432-86-20

**11 saylı Mirqurbanlı kənd seçki məntəqəsi**

Məntəqə T.İsmayılov adına Mirqurbanlı kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Mirqurbanlı, Günəşli və Söyüdlü kəndlərindəki yaşayış evləri daxildir. Tel: 69-1-59, 050-380-69-87

**12 saylı Bankə qəsəbə seçki məntəqəsi**

Məntəqə Bankə qəsəbəsindəki mədəniyyət evində yerləşir. Məntəqəyə M.P.Vaqif, M.V.Vidadi, M.Hüseynzadə, Q.Məmmədov, Pişəvəri, V.Ağayev, H.Əmənov küçələrindəki evlər, I-II məhəllələrdəki və S.Vurğun 1-55 saylı yaşayış evləri daxildir.
Tel: 52-5-17, 051-892-72-31

**13 saylı Bankə qəsəbə seçki məntəqəsi**

Məntəqə Ə.Cəfərov adına Bankə qəsəbə 1 saylı tam orta məktəbində yerləşir. Məntəqəyə S.Vurğun küçəsindəki 56-136 saylı evlər, L.Rzayev, B.Eyvazov, T.Xantemirov küçələrindəki evlər, III-V məhəllələrdəki evlər, A.Nəsirov küçəsindəki 22-64 saylı evlər və C.Mikayılov küçəsindəki yaşayış evləri daxildir.
Tel: 52-4-53, 050-685-11-26

**14 saylı Bankə qəsəbə seçki məntəqəsi**

Məntəqə S.Vurğun adına Bankə qəsəbə 2 saylı tam orta məktəbində yerləşir. Məntəqəyə Ə.Gözəlov, R.Əliyev, Ə.Məmmədov, N.Nərimanov, S.Paşin küçələrindəki evlər və A.Nəsirov küçəsindəki 1-21 saylı yaşayış evləri daxildir.
Tel: 52-5-13, 050-491-51-73

**15 saylı Xıllı qəsəbə seçki məntəqəsi**

Məntəqə Xıllı qəsəbəsindəki R.Gözəlov adına 1 saylı tam orta məktəbində yerləşir. Məntəqəyə M.Füzuli, N.Gəncəvi, Y.Qasımov, V.Məmmədov, İ.Sultanov, H.Xəlilov və N.Nərimanov küçələrindəki yaşayış evləri daxildir.
Tel: 44-2-90, 050-473-51-59

**16 saylı Xıllı qəsəbə seçki məntəqəsi**

Məntəqə Xıllı qəsəbəsindəki F.Quliyev adına 2 saylı tam orta məktəbində yerləşir. Məntəqəyə A.Cəfərov, İ.Babayev, İ.Nəsimi və F.Quliyev küçələrindəki yaşayış evləri daxildir.
Tel: 44-2-28, 050-425-70-51

**17 saylı Kürkənd kənd seçki məntəqəsi**

Məntəqə V.Soltanov adına Kürkənd kənd ümumi orta məktəbində yerləşir. Məntəqəyə Kürkənd kəndindəki yaşayış evləri daxildir.
Tel: 3-22-26, 050-455-30-05

**18 saylı II Mayak kənd seçki məntəqəsi**

Məntəqə A.Səlimov adına 2 saylı kənd tam orta məktəbində yerləşir. Məntəqəyə II Mayak kəndindəki yaşayış evləri daxildir.
Tel: 050-351-49-62.

**19 saylı Yeniqışlaq kənd seçki məntəqəsi**

Məntəqə A.Dadaşov adına Yeniqışlaq kənd ümumi orta məktəbində yerləşir. Məntəqəyə Yeniqışlaq və Haqverdili kəndlərindəki yaşayış evləri daxildir.
Tel: 59-1-16, 050-473-51-41

**20 saylı Mikayıllı kənd seçki məntəqəsi**

Məntəqə Mikayıllı kənd umumi orta məktəbində yerləşir. Məntəqəyə Sarıqamış, Mikayıllı, Dalğalı, Saratovka, Kürdili və Qızqayıtlı kəndlərindəki yaşayış evləri daxildir.
Tel: 050-378-44-69

**21 saylı I Mayak kənd seçki məntəqəsi**

Məntəqə M.Sadıqov adına I Mayak kənd tam orta məktəbində yerləşir. Məntəqəyə I Mayak və Sübh kəndlərindəki yaşayış evləri daxildir.
Tel: 58-1-03, 070-510-86-82

**22 saylı Yenikənd kənd seçki məntəqəsi**

Məntəqə Sübh kənd uşaq bağçası-körpələr evində yerləşir. Məntəqəyə Yenikənd və Qırmızı Şəfəq kəndlərindəki yaşayış evləri daxildir.
Tel: 050-526-95-17

**23 saylı Şirvanlı kənd seçki məntəqəsi**

Məntəqə İ.Babayev adına Şirvanlı kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Şirvanlı kəndindəki yaşayış evləri daxildir.
Tel: 67-2-00, 050-643-13-52

**24 saylı Abasallı kənd seçki məntəqəsi**

Məntəqə Abasallı kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Tatarməhlə və Abasallı kəndlərindəki yaşayış evləri daxildir.
Tel: 050-510-40-15

**25 saylı Mirzəqurbanlı kənd seçki məntəqəsi**

Məntəqə Mirzəqurbanlı kənd kitabxanasında yerləşir. Məntəqəyə Mirzəqurbanlı və Uzunbabalı kəndlərindəki yaşayış evləri daxildir.
Tel: 050-627-26-94

**26 saylı Yuxarı Qaramanlı kənd seçki məntəqəsi**

Məntəqə R.Əliyev adına Yuxarı Qaramanlı kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Yuxarı Qaramanlı və Pirəbbə kəndlərindəki yaşayış evləri daxildir.
Tel: 53-2-75, 050-790-28-94

**27 saylı II Qaralı kənd seçki məntəqəsi**

Məntəqə II Qaralı kənd tam orta məktəbində yerləşir. Məntəqəyə II Qaralı kəndindəki yaşayış evləri daxildir.
Tel: 53-2-19, 050-632-28-29

**28 saylı Aşağı Qaramanlı kənd seçki məntəqəsi**

Məntəqə Aşağı Qaramanlı kənd mədəniyyət evində yerləşir. Məntəqəyə Aşağı Qaramanlı kəndindəki yaşayış evləri daxildir.
Tel: 62-3-43, 050-373-49-63

**29 saylı Astanlı kənd seçki məntəqəsi**

Məntəqə A.Cəfərov adına Astanlı kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Astanlı kəndindəki yaşayış evləri daxildir.
Tel: 44-1-53, 050-416-93-98

**30 saylı Boyat kənd seçki məntəqəsi**

Məntəqə Boyat kənd mədəniyyət evində yerləşir. Məntəqəyə Boyat və Ballıcallı kəndlərindəki yaşayış evləri daxildir.
Tel: 61-3-00, 050-530-05-00

**31 saylı Qaçaqkənd kənd seçki məntəqəsi**

Məntəqə Qaçaqkənd kənd mədəniyyət evində yerləşir. Məntəqəyə Qaçaqkənd, Xanməmmədli, Ramazanlı və Qazaxbərəsi kəndlərindəki yaşayış evləri daxildir.
Tel: 65-2-10, 050-359-96-44

**32 saylı Qırmızıkənd kənd seçki məntəqəsi**

Məntəqə Qırmızıkənd kənd mədəniyyət evində yerləşir. Məntəqəyə Qırmızıkənd kəndindəki yaşayış evləri daxildir.
Tel: 55-1-22, 050-392-29-75

**33 saylı Xolqaraqaşlı kənd seçki məntəqəsi**

Məntəqə Xolqaraqaşlı kənd mədəniyyət evində yerləşir. Məntəqəyə Xolqaraqaşlı və Mürsəqulu kəndlərindəki yaşayış evləri daxildir.
Tel: 68-1-54, 050-351-02-55

**34 saylı Xolqarabucaq kənd seçki məntəqəsi**

Məntəqə Xolqarabucaq kənd mədəniyyət evində yerləşir. Məntəqəyə Xoltəzəkənd və Xolqarabucaq kəndlərinin əsas hissəsi, Kərimov Həzrətqulu Kərim oğlunun evinə qədər olan yaşayış evləri daxildir.
Tel: 68-1-71, 050-474-65-11, 055-575-36-11

**35 saylı Mürsəqulu kənd seçki məntəqəsi**

Məntəqə İ.Səfərov adına Mürsəqulu kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Dördlər, Xolqarabucaq kəndinin sakini Kərimov Həzrətqulu Kərim oğlunun evindən Cavadov Səlahəddin Qulam oğlunun evinə kimi yaşayış evləri daxildir.
Tel: 68-3-09, 050-381-32-57

**36 saylı Xəzər kənd seçki məntəqəsi**

Məntəqə Xəzər kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Xəzər kəndindəki yaşayış evləri daxildir.
Tel: 56-2-19, 051-382-34-44

**37 saylı Qədimkənd kənd seçki məntəqəsi**

Məntəqə S.Kərimov adına Qədimkənd kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Qədimkənd və I Qaralı kəndlərindəki yaşayış evləri daxildir.
Tel: 62-3-67, 050-386-95-26

**38 saylı Kürqarabucaq kənd seçki məntəqəsi**

Məntəqə Kürqarabucaq kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Kürqarabucaq kəndindəki yaşayış evləri daxildir.
Tel: 53-2-06, 050-613-19-46, 050-333-50-63

**39 saylı Neftçala şəhər seçki məntəqəsi**

Məntəqə Neftçala şəhər 1 saylı tam orta məktəbində yerləşir. Məntəqəyə M.Əsədov 4A, 4Q, 4V, H.Əliyev, A.Cəfərov küçələrindəki yaşayış evləri daxildir.
Tel: 3-16-51, 050-396-55-31

**40 saylı Xıllı qəsəbə seçki məntəqəsi**

Məntəqə H.Nəcəfov adına Xıllı qəsəbə tibb məntəqəsində yerləşir. Məntəqəyə M.Füzuli, N.Nərimanov, Y.Qasımov, V.Məmmədov, N.Gəncəvi və İ.Sultanov küçələrindəki yaşayış evləri daxildir.
Tel: 44-2-51, 050-368-02-53

**41 saylı Boyat kənd seçki məntəqəsi**

Məntəqə Boyat kənd tam orta məktəbində yerləşir. Məntəqəyə Dördlər kəndindəki yaşayış evləri daxildir.
Tel: 61-2-66, 050-431-46-23

# NOVBƏTİ SƏYYAR QƏBULLAR BOYAT KƏNDİNDƏN BAŞLANDI

Rayon rəhbərinin yerlərdəki səyyar qəbulları, görüşləri həmişə böyük marağa səbəb olur, işgüzarlıq şəraitində keçir. Bir çox məsələlərin, problemlərin həlli elə burada,



yerində həll olunduğundan insanlar həmin tədbirlərdə həvəslə iştirak edirlər. Ötən dövrlərdəki səyyar görüş və qəbullar bunu



əyani şəkildə göstərib. Rayon rəhbəri ona müraciət edənləri daim diqqətlə dinləyib, istər şəxsi, istərsə də ictimai problemlərin, çətinliklərin aradan qaldırılması üçün əlindən gələni əsirgəməyib. Geniş ictimaiyyətin rayon rəhbərinə olan imanı, etimadı da elə



buradan qaynaqlanır.

Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevlə növbəti səyyar qəbulun ünvanı bu dəfə Boyat kəndi idi. Ərazidə yaşayan çoxlu sayda insanlar görüş üçün kənddəki mədəniyyət evinə toplaşmışdılar. Rayonun ayrı-ayrı idarə və müəssisələrinin rəhbərləri, məsul şəxslər də qəbulda iştirak edirdilər.

Boyat kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Asif Qafarov ilk olaraq rayon rəhbərini və gələn qonaqları salamlayaraq son vaxtlar burada görülən işlər, həyata keçirilən tədbirlər barədə məlumat verdi. Qeyd etdi ki, Prezident İlham Əliyevin qayğısı sayəsində kənd təsərrüfatı məhsulları istehsalına, o cümlədən pambıqçılığa diqqətin artırılması ərazidə yaşayan insanların məşğulluğunu xeyli dərəcədə artırmış, onlar dolanışıq imkanlarını daha da yaxşılaşdırmışlar. Buna görə dövlət başçısına kənd sakinləri adından səmimi minnətdarlığını bildirən ərazi nümayəndəsi qeyd etdi ki, göstərilən qayğıya əməli işləri ilə cavab vermək üçün səylərini durmadan artıracaqlar.

Kənd sakini, təcrübəli təsərrüfatçı, uzun illər pambıqçılıq sahəsində çalışan Almirzə Səmədovun çıxışı maraqla dinlənildi. Ötən illərin zəngin təcrübəsindən istifadə edərək fermerlərin, torpaq mülkiyyətçilərinin bu il pambıqçılıqda daha fəal iştirak edəcəklərini qeyd edən Almirzə Səmədov Boyat kəndinə gələn yolun təmirinin də vacibliyini diqqətə çatdırdı. Bildirdi ki, yolun qaydaya salınması bütün kənd sakinlərinin ürəyindən olar, onları daha yaxşı işləməyə ruhlandırar.

Ötən ilki nailiyyətlərinə görə Prezident İlham Əliyevin sərəncamı ilə 2-ci dərəcəli "Əmək" ordeninə layiq görülən Əlihüseyn Hacıyevi təbrik edən rayon rəhbəri cari ildə ona daha böyük uğurlar arzuladı. Fermer Əlihüseyn Hacıyev də göstərdiyi böyük qayğı və diqqətə görə dövlət başçısına minnətdarlıq etdi. Bildirdi ki, yüksək mükafat, eyni zamanda, yüksək məsuliyyətdir. Cari ildə onlar daha böyük məsuliyyətlə çalışacaqlar ki, buna əməli işləri ilə cavab versinlər.

Tam demokratik şərait yaradıldığından digər sakinlər də ürək sözlərini bildirdilər, onları narahat edən məsələləri dilə gətirdilər. Ağadadaş Babayevin sözlərindən məlum oldu ki, şor suların axıdılmasındakı çətinliklər torpaqların zərərli duzlardan yuyulmasına və arat işlərinə mane olur. Bu isə gələcək məhsuldarlığa mənfi təsir göstərməyə bilməz.

Sakinlərin bütün fikirlərini, tənqidi qeydlərini diqqətlə dinləyən rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev onların hər birinə münasibətini bildirdi. Qeyd etdi ki, vaxtı ilə bu ərazidə yaşanan qaz, işıq, su probleminə son qoyulduğu kimi qaldırılan yol, kollektor-drenaj sisteminin yenidən qurulması və digər problemlər, çətinliklər də tədricən aradan qaldırılacaqdır. Rayon rəhbəri yerli məsələlərin həllində kənd bələdiyyəsini də fəal olmağa çağırdı.

# SHXÇDX-nin rayon şöbəsində yeni sevinc yaşandı

XX əsrin sonlarında əldə olunan müstəqilliyin, bu böyük tarixi şansın sevincini hər respublika, hər xalq özünəməxsus şəkildə yaşadı. Lakin biz yaşaya bilmədik. Çünki dağılmazdan öncə imperiya Azərbaycanda qanlı yanvar qırğını törətdi, ölkəmiz ədalətsiz müharibəyə cəlb olundu. Həm SSRİ-dən miras qalmış moskvapərəst rəhbərlik, həm də ondan sonra hakimiyyətə gələn səriştəsiz iqtidar xalqın etimadını doğrulda bilmədi. Nəticədə nəinki Dağlıq Qarabağ, hətta aran Qarabağın da bir hissəsi düşmən əlinə keçdi.



Ulu öndər Heydər Əliyev hakimiyyətə gələndə ölkəmiz faktiki olaraq düşmənlərə məğlub olmuş, Qarabağ əldən getmişdi. Özünü qalib sayan Ermənistan hücumlarını, demək olar, hər gün davam etdirirdi. Heydər Əliyev çox gözəl anlayırdı ki, atəşkəsə nail olmadan nə ölkəni inkişaf etdirmək, nə də ordu quruculuğuna başlamaq mümkün olacaq.



Qalib tərəfi isə atəşkəs stoluna oturtmaq o qədər də asan deyildi. Bunun üçün düşmənə düşmən kimi dərs vermək, yerində oturtmaq lazım idi. 1993-cü ilin sonlarında ordumuz Ali Baş Komandan Heydər Əliyevin əmri ilə Füzuli rayonu istiqamətində qəti hücuma keçdi, qısa müddət ərzində rayonun işğal altında olan Horadiz qəsəbəsi və 22 kənd işğaldan azad olundu. Düşmənlər nəinki silahlarını, hətta rabitə vasitələrini belə ataraq ağır itkilər verə-verə geri çəkildilər. Bu hadisədən dərhal sonra Ermənistan atəşkəsə razılıq verdi, danışıqlar stoluna oturdu. Bu, bizim üçün ilk qələbə müjdəsi idi, onun müəllifi isə müdrik sərkərdə Heydər Əliyev oldu. Demək olar bu günkü bütün uğurlarımızın bünövrəsi məhz o günlərdə qoyuldu. İlk tarixi qələbə, torpaqlarımızın bir hissəsinin işğaldan azad edilməsi xalqımıza böyük ruh verdi, onun sabaha olan inamını artırdı. Heydər Əliyev faktiki olaraq müharibəni saxladı, ölkənin daxili və xarici siyasətini yeni istiqamətə doğru yönəltdi, digər sahələrlə yanaşı ordu quruculuğuna, ordunun yenidən qurulmasına da start verdi.

Bu şanlı tarix bir də 2016-cı ilin aprel döyüşlərində təkrarlandı. Tamamilə yenidən qurulan, ən müasir silahlarla təchiz olunan Azərbaycan Ordusu, qalib Azərbaycan əsgəri nəyə qadir olduğunu, gücünü, qüdrətini bu dəfə də ortaya qoya bildi. Nəticədə strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqələri düşməndən tam azad olundu. Göranboy rayonuna, Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər, eləcə də Seysulan məntəqəsi düşmən qüvvələrindən tam təmizləndi, Horadiz şəhərinin düşmən təhlükəsindən qorunması məqsədilə Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli "Lələ təpə" adlandırılan yüksəklik də bölmələrimizin nəzarəti altına keçdi. Amma çox təəssüf ki, bu qanlı döyüşlərdə sayseçmə oğullarımızı da itirdik. İgid həmyerlimiz mayor Samid İmanov və gizir Elimdar Səfərov da Neftçalanın hərb tarixinə yeni qəhrəmanlıq səhifələri yazdılar. İndi onların məzarları, abidələri and yerimizə çevrilib.

O vaxt Milli Məclis sədrinin birinci müavini, Müdafiə, Təhlükəsizlik Komitəsinin sədri Ziyafət Əsgərovun Milli Məclisin toplantısında dediyi "Bir çoxlarının fikirləşdiyi kimi o vaxt biz müasir silahları hərbi paradlarda nümayiş etdirmək üçün yox, bu günümüz üçün almışdıq" fikri çox dəqiq, yerində deyilmişdi. Ordumuz bu gücə, qüdrətə məhz Prezident İlham Əliyevin müdrük, uzaqgörən siyasəti nəticəsində nail olmuşdur. Əgər ordumuz illərlə, on illərlə ən müasir silahlarla, hərbi ləvazimatlarla təmin olunmasaydı, əsgərlərimizin döyüş ruhu, vətən sevgisi yüksəldilməsəydi yəqin ki, belə parlaq qələbəni əldə etmək mümkün olmazdı. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna böyük diqqət yetirməsi, Silahlı Qüvvələrimizin ən müasir silahlarla təchiz edilməsi Azərbaycan Ordusunu dünyanın ən güclü, ən çevik orduları səviyyəsinə yüksəltmişdir. Aprel döyüşlərindəki yüksək peşəkarlıq bunu bir daha nümayiş etdirdi.

Şübhəsiz, güclü, peşəkar ordu özözünə formalaşmır. Bu işi də həyata keçirən qurumlar, təşkilatlar var. Əvvəlcə bu mühüm məsələni Müdafiə Nazirliyinin tabeliyində olan respublika Hərbi Komissarlığı, onun yerlərdəki qurumları həyata keçirirdilər. 2012-ci ilin 13 fevralından isə həmin vəzifəni dövlət başçısı cənab İlham Əliyevin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunun tətbiqi barədə imzaladığı fərmana əsasən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və onun yerlərdəki şöbələri həyata keçirirlər. Vətəndaşların hərbi-vətənpərvərlik tərbiyəsi, müddətli həqiqi hərbi xidmətə çağırışa qədərki hazırlıq, həqiqi hərbi xidmətə çağırış, ehtiyatda xidmət keçmək, səfərbərlik hazırlığı və səfərbərlik üzrə çağırış, xüsusi hərbi ixtisaslar üzrə və digər məsələlər bu qurumun yerinə yetirdiyi əsas vəzifələrdəndir.

Bu vəzifənin məsuliyyətini SHXÇDX Neftçala rayon şöbəsinin kollektivi də dərindən dərk edir. Şöbənin rəisi Turan Əliyev dedi:

— Ölkə üçün, Vətən üçün vətənpərvər, hazırlıqlı əsgər yetişdirməyin ilkin bünövrəsi yerlərdə qoyulur, çağırış şöbələrində yerinə yetirilir. Ona görə biz bütün il boyu çağırışçı gənclərlə fəal iş aparırıq, onların ordu sıralarına hərtərəfli hazırlığı üçün ardıcıl tədbirlər həyata keçiririk. Hərbi hazırlıq məsələləri ilə yanaşı hərbi vətənpərvərlik hisslərinin güclənməsi də çox mühüm amildir. Biz bu məsələni də daim diqqətdə saxlayırıq. Böyük Vətən müharibəsi və Qarabağ müharibəsi veteranları ilə keçirdiyimiz görüşlər həmişə yaddaqalan olur. Odlu-alovlu cəbhələrdən keçmiş belə veteranlar gənclərin ordu sıralarına yola salınmasındakı tədbirlərdə də fəal iştirak edirlər. Onların verdikləri xeyir-dua, dəyərli məsləhətlər ordu sıralarına yola düşən gənclər üçün həmişə faydalı olur. Neftçalalı gənclərin nümunəvi xidmətlərilə bağlı hərbi hissələrdən aldığımız təşəkkür məktubları çəkdiyimiz birgə zəhmətin, apardığımız fəal işin bəhrəsidir.

Hər il fevral ayının 13-nü — Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yarandığı günü rayon şöbəsinin kolletivi, şəxsi heyət də həmişə bayram əhvali-ruhiyəsi ilə qeyd edir. Bu il də belə oldu. Həmin gün şöbədə də sevinc yaşanırdı. Əlamətdar gün münasibətilə şöbənin rəisi Turan Əliyevi, əməkdaşları təbrik etdik, onlara şərəfli işlərində uğurlar arzuladıq. Həmişə olduğu kimi şöbənin rəhbərliyi, şəxsi heyəti, əməkdaşları bu il də həmin gün ilk olaraq ordu quruculuğunun möhkəm təməlini qoymuş ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək buraya tər çiçəklər düzdülər, bütün ömrünü Vətənin çiçəklənməsinə sərf etmiş bu dahi insana özlərinin dərin hörmət və ehtiramlarını bildirdilər.

Mərasimdə rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyətin nümayəndələri də iştirak edirdilər.

Abidənin ziyarəti mərasimi başa çatdıqdan sonra tədbir şöbədə davam etdirildi.

**H.ƏSƏDOV**

# XOCALI FACİƏSİNDƏN 26 İL ÖTÜR: VƏTƏNİN QAN AXAN YARASI

Tarix insan vəhşiliyinin, irqi, milli, dini zəmində qırğınların, qətliamların hər üzünün şahidi olmuşdur. Biz isə belə hadisələr



haqqında kitablarda oxumuş, kinofilmlərdə görmüşdük. Amma svilizasiyanın indiki vaxtında bunun canlı şahidi olmaq, hətta qurbanına çevrilmək ağlımıza belə gəlməzdi.

Torpaqlarımıza qənim kəsilən mənfur ermənilərin fəallaşması, Qarabağ iddiası ötən əsrin sonlarında daha da reallaşmağa başladı. Ümummilli liderimiz Heydər Əliyev SSRİ rəhbərliyindən istefa verdikdən sonra erməni mafiyasının əli-qolu xüsusilə açıldı, onlar uzun illər dillərinə belə gətirə bilmədiyi Dağlıq Qarabağ sevdasını açıq şəkildə bəyan etməyə başladılar. Erməniləri ruhlandıran bir amil də SSRİ-nin sonuncu rəhbəri Mixail Qorbaçovun açıq-aşkar onlara dəstək verməsi, azərbaycanlılara arxa çevirməsi idi. Hətta SSRİ dağıldıqdan sonra da rus-erməni şovinizmi öz işini gördü. Cəlb olunduğumuz ədalətsiz müharibədə o zamankı Rusiya rəhbərliyi ermənilərə açıq-aşkar hərbi dəstəyini göstərdi.

Belə olmasaydı 1992-ci il ferval ayının 25-dən 26-na keçən gecə rus-erməni hərbi birləşmələri Xocalı şəhərini mühasirəyə ala bilməzdilər. Ağır hərbi texnikanın, minaatanların vasitəsilə əliyalın dinc əhali üzərinə güclü hücum başlanmazdı. Başını itirmiş o zamankı Azərbaycan iqtidarı isə kabinetində oturaraq kreslosunu hakimiyyətə susamış yerli müxalifətdən qorumaqla məşğul idi. Vəzifə və hakimiyyət hərisliyi vətən təəssübünü, millət təəssübünü üstələmişdi. Təsadüfi deyil ki, ertəsi gün yerli radio və televiziya Xocalıda cəmi iki



nəfərin öldüyü və bir neçə nəfərin yaralandığı barədə soyuq, ötəri bir məlumat yaydı.

Sanki söhbət Azərbaycandan, azərbaycanlılardan yox, dünyanın o başındakı, bizim üçün üçüncü dərəcəli əhəmiyyət daşıyan bir ölkədən gedirdi. Nə qədər acınacaqlı olsa da, reallıq belə idi. Halbuki, həmin gecə Xocalı şəhəri sözün əsl mənasında yer üzündən silinmişdi. Bu artıq torpaq iddiası, torpaq işğalı deyildi, milli və dini zəmində törədilmiş əsl soyqırım idi. Qətlə yetirilən insanlar azərbaycanlı-türk-müsəlman olduqlarına görə kütləvi şəkildə məhv edilmişdilər. Həmin gecə 613 nəfər həlak oldu, 159 nəfər itkin düşdü, 1225 nəfər dinc sakin əsir götürüldü.

XX əsrin ən qatı cinayətlərindən biri olan Xocalı soyqırımından artıq 26 il ötür. Bu illər ərzində zaman dəyişmiş, Azərbaycana dost olan bir sıra ölkələr bu soyqırımı tanımışdır. Azərbaycanda olan tolerantlıq artıq bütün dünyaya nümunə kimi göstərilir. Bunu təkcə biz demirik, əsrlər boyu Azərbaycanda yaşayan vətəndaşlarımız olan yəhudilər deyir. Yəhudi icmasının bu günlərdə Xocalı soyqırımını eynilə ikinci dünya müharibəsində yəhudi xalqının alman faşizmi tərəfindən soyqırımının davamı kimi qiymətləndirməsi Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında növbəti mərhələ və beynəlxalq aləmə ciddi siqnaldır.

Xocalı soyqırımı Azərbaycan tarixinin, Azərbaycan xalqının açıq qalan, qan axan yarasıdır. Amma qisas və qələbə günü o qədər



də uzaqda deyil. Həmin günü öz gözlərimizlə görəcəyik, onda günahsız qurbanların da ruhu şad olacaq.

**Zabil PƏRVİZ**

## ÖTƏN İLİN UNUDULMAZ ANLARI













# 2017-ci İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARI

## Neftçala Rayonu İcra Hakimiyyətinin



**Prezident İlham Əliyevin sədrliyi ilə yanvarın 10-da Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunları və 2018-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasına müvafiq olaraq Heydər Əliyev Mərkəzində rayonun idarə, müəssisə və təşkilat rəhbərlərinin, şəhər, qəsəbə və kənd inzibati ərazi dairələri üzrə nümayəndəliklərin, bələdiyyə və səhmdar cəmiyyətləri sədrlərinin, müştərək müəssisə və qeyri-hökumət təşkilatları rəhbərlərinin, iş adamlarının, sahibkarların iştirakı ilə geniş yığıncaq keçirilmişdir.**

**Yığıncaq başlamamışdan əvvəl rayon rəhbəri, qonaqlar və toplantı iştirakçıları ümummilli lider Heydər Əliyevin Neftçala şəhərindəki abidəsi önünə gələrək buraya tər çiçək dəstələri düzmüş, Heydər Əliyev Mərkəzinin foyesindəki rayonda ötən ildə görülən işləri əks etdirən foto-stendlərlə, burada istehsal olunmuş məhsulların nümunələri ilə tanış olmuşlar.**

**Hesabat yığıncağında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi hörmətli İbrahim Mustafayev və Azərbaycan Respublikası Milli Məclisinin Regional Məsələlər Komitəsinin sədri, rayonumuzun deputatı hörmətli Arif Rəhimzadə iştirak etmişlər.**



**Neftçala Rayonu İcra Hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunları və 2018-ci ildə qarşıda duran vəzifələr barədə məruzə etmişdir.**

**Hörmətli yığıncaq iştirakçıları!**

Prezident İlham Əliyevin rəhbərliyi ilə 2017-ci ildə ölkəmizin qarşısında duran bütün vəzifələr uğurla icra edilmişdir, Azərbaycan öz sürətli inkişaf tempini saxlaya bilmiş, iqtisadi və sosial proqramlar yerinə yetirilmiş, böyük layihələr icra edilmişdir. Ölkə rəhbəri cənab İlham Əliyevin sədrliyi ilə 10 yanvar 2018-ci il tarixində Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2018-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlətimizin başçısı nitqində demişdir: "2017-ci ildə ölkəmiz sürətlə və uğurla inkişaf etmişdir. Həyatımızın bütün sahələrində əldə edilmiş nəticələr ölkəmizin ümumi inkişafına böyük töhfə vermişdir.

Görülən bütün işlər və əldə edilmiş nəticələr deməyə əsas verir ki, Azərbaycan bu gün uğurla, sürətlə inkişaf edən ölkədir. Ancaq biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik, daim qabağa baxmalıyıq və növbəti illərdə görüləcək işlərlə bağlı fəaliyyətimizi düzgün qurmalıyıq".

2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının Neftçala rayonu üzrə nəzərdə tutulan tədbirləri də, uğurla yerinə yetirilmişdir. Bu illər ərzində rayon iqtisadiyyatına bütün maliyyə mənbələri hesabına 234,7 milyon manat investisiya qoyulmuşdur ki, bunun da 191,7 milyon manatı dövlət, 43 milyon manatı qeyri dövlət sektorunun payına düşür. Qeyd olunan dövrdə rayon üzrə 3251 daimi yeni iş yeri olmaqla ümumilikdə 8980 yeni iş yeri açılmışdır. Xüsusilə dövlət proqramında mühüm əhəmiyyət daşıyan infrastruktur layihələr icra edilmiş, rayonun 23 yaşayış məntəqəsi qazlaşdırılmış, 31 kənddə modul tipli su qurğuları quraşdırılmış, 12 kənddə bu istiqamətdə işlər aparılır. Rayon ərazisində 84 km uzunluğunda kəndlərarası avtomobil yolu yenidən qurulmuş, 788 yerlik 6 ədəd yeni məktəb binası inşa edilmiş, 4 modul tipli məktəb tikilərək istifadəyə verilmiş, 1 məktəb əsaslı təmir olunmuş, 1 İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyanın əsaslı təmiri və 1 modul tipli məktəbin tikintisi davam etdirilir. Dövlət proqramına əsasən rayon ərazisində 110/35/6 KV-luq elektrik yarımstansiyası istifadəyə verilmiş, Neftçala Rayon Mərkəzi Xəstəxanası əsaslı təmir edilmiş, Sahibkarlara Kömək Milli Fondu tərəfindən 63 nəfərə 7 milyon 283 min manat məbləğində güzəştli kredit verilmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

Mən cənab Prezidentin nitqində müzakirə olunan məsələlərlə bağlı bəzi məqamlara toxundum və qeyd etməliyəm ki, Neftçala rayonunun da bu davamlı inkişaf prosesində öz rolu olmuşdur. Odur ki, diqqətinizi 2017-ci ildə rayonumuzun mühüm tarixi hadisələrinə və sosial-iqtisadi inkişafı istiqamətində görülmüş işlərə yönəltmək istəyirəm.

2017-ci ildə rayonda ümumi məhsul istehsalının həcmi 2016-cı ilə nisbətən 18,3% artmışdır. Hesabat dövründə ümumi məhsul istehsalı 296,2 milyon manat olmuşdur ki, bu da 2016-cı il ilə müqayisədə 45,8 milyon manat çoxdur. 2017-ci ildə ümumi məhsulun tərkibində sənaye məhsulu 31 milyon 412,0 min manat və ya ümumi məhsulun 10,6%-i qədər, kənd təsərrüfatı məhsulu 100 milyon 140,0 min manat və ya 33,8%, nəqliyyat xidməti 2 milyon 209,0 min manat və ya 0,7%, rabitə xidməti 688,0 min manat və ya 0,2%, ticarət, iaşə və digər xidmət sahələrinin həcmi 93 milyon 132,0 min manat və ya 31,5%, tikinti işlərinin həcmi 68 milyon 643,0 min manat və ya 23,2% olmuşdur. Ümumi məhsulun həcmində qeyri-dövlət bölməsinin payı 75,2%-ə çatmışdır. Adambaşına 3410 manatlıq və ya 2016-cı ilə nisbətən 17,3% çox məhsul istehsal edilmişdir.

2017-ci ildə rayonda 101 yeni müəssisə yaradılmış, 5 müəssisənin fəaliyyəti bərpa olunmuş, 881 fiziki şəxs fəaliyyətə başlamışdır. Yeni yaradılmış müəssisələrin hesabına 101, fəaliyyəti bərpa olunmuş müəssisə hesabına 5, mövcud müəssisə və təşkilatlarda 30, fiziki şəxslər üzrə 881 yeni iş yeri olmaqla, cəmi 1017 daimi yeni iş yeri açılaraq işsiz və iş axtaran vətəndaşlar işlə təmin olunmuşdur. Rayonda aparılan tikinti-quruculuq və kənd təsərrüfatında mövsümi işlərə 4165 nəfər, o cümlədən pambıq yığımına 2550 nəfər cəlb olunmuşdur. Ümumilikdə rayon üzrə 5182 nəfər işlə təmin olunmuşdur. Yeni iş yerlərinin açılması istiqamətində müvafiq olaraq əlavə tədbirlər görülür.

Hesabat dövründə rayonda fəaliyyət göstərən 12 sənaye müəssisəsi və bu sahədə fiziki şəxslərin fəaliyyəti nəzərə alınmaqla 31 milyon 412,0 min manatlıq sənaye məhsulu istehsal olunmuş, iş və xidmətlər yerinə yetirilmişdir. Sənayenin ümumi məhsulunda qeyri-dövlət bölməsinin xüsusi çəkisi 80,0% təşkil etmişdir. Sənaye istehsalının ümumi həcmində neft hasilatı 57,9 faiz, yod emalı isə 22,1 faiz olmuşdur. Cari ildə 33,1 min ton xam neft və 198,5 ton yod istehsal edilmişdir.

2017-ci ildə nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsi üzrə fəaliyyət göstərən fiziki şəxslərin işi nəzərə alınmaqla 712,0 min ton yük, 8 milyon 152,0 min nəfər sərnişin daşınmışdır ki, bu da 2016-cı illə müqayisədə yük daşınması 3,3 faiz, sərnişin daşınması isə 2,8 faiz artmışdır.

Hesabat dövründə rabitə müəssisələri tərəfindən əhaliyə, müəssisə və təşkilatlara faktiki qiymətlərlə 688,8 min manatlıq rabitə xidməti göstərilmişdir. Göstərilən rabitə xidmətlərinin həcmi 2016-cı il ilə müqayisədə 3,6% artmışdır. Hazırda rayonda hər 100 təsərrüfata 64 ədəd telefon aparatı düşür.





Hesabat ilində əhalinin nominal pul gəlirləri 286 milyon 191,0 min manat olmuş, 2016-cı il ilə müqayisədə 7,2% artmışdır. Adambaşına düşən pul gəlirləri 6,3% artaraq 3295,0 manat olmuşdur. Rayon üzrə bir işçinin orta aylıq əmək haqqı 277,2 manat təşkil edir. İlin əvvəlindən əhaliyə 259,8 milyon manatlıq istehlak malları satılmış və xidmətlər göstərilmişdir. Pərakəndə əmtəə dövriyyəsi 1,2% artaraq 224,6 milyon manata, pullu xidmətlərin həcmi 11,5% çoxalaraq 31,1 milyon manata, iaşə xidmətlərinin həcmi 2,4% artaraq 4,1 milyon manata çatmışdır.

2017-ci il üçün rayonun yerli gəlirləri və xərcləri 6 milyon 367,0 min manat təsdiq olunmuşdur. 2017-ci ildə büdcəyə 6 milyon 367,0 min manata qarşı 6 milyon 543,9 min manat vəsait daxil olmuş və ya 102,8% icra olunmuş, yerli xərclər 6 milyon 367,0 min manata qarşı 6 milyon 128,5 min manat və ya 96,3% icra olunmuşdur.



01 yanvar 2018-ci il tarixə pensiya və müavinət alanların sayı 13497 nəfər, ünvanlı dövlət sosial yardımı alanların sayı 285 ailə olmuş, 140 kimsəsiz ahıl və əlillərə sosial məişət xidməti göstərilmişdir. Hesabat dövründə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 4 fərdi ev tikilərək Qarabağ müharibəsi əlili və Şəhid ailələrinə verilmişdir.

2017-ci il ərzində rayon məşğulluq mərkəzi tərəfindən 360 nəfər iş axtaran vətəndaş daimi iş yerləri ilə təmin olunmuş və 112 nəfərə işsiz statusu verilərək işsizlik müavinəti təyin edilmişdir.

Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına 11 sahibkara 686,5 min manat məbləğində güzəştli kredit verilmişdir.

2017-ci ildə Neftçala Elektrik Şəbəkəsi tərəfindən rayona 173,1 milyon kvt. saat elektrik enerjisi verilmiş, o cümlədən elektrik enerjisinin 38,8 milyon kvt. saatı əhaliyə satılmış, həmin enerjinin dəyəri rayon üzrə 81,8 faizi ödənilmişdir ki, bunun da 97,6 faizi əhalinin payına düşür. Əhali abonentlərinin sayğaclaşdırılması 98,8% təşkil edir.

2017-ci il ərzində Salyan Regional Qaz İstismar İdarəsi tərəfindən rayona 17 milyon 194 min kubmetr həcmində təbii qaz verilmiş, o cümlədən əhaliyə satılan qazın ümumi həcmi 15 milyon 344 min kubmetr olmuş, bunun da dəyəri rayon üzrə 89,2 faiz, o cümlədən, əhali üzrə 94,2 faiz ödənilmişdir. Əhali abonentlərinin sayğaclaşdırılması 100% təşkil edir.

Hesabat dövründə rayonda fəaliyyət göstərən üç nərəbalıqartırma zavodları tərəfindən 6 milyon 560,0 min ədəd nərə cinsli körpə balıqlar yetişdirilərək Kür çayı vasitəsilə Xəzər dənizinə buraxılmışdır. Bu da 2016-cı ilin müvafiq dövründə olan göstəricidən 14,4% azdır.

Rayonda 2017-ci ildə aqrar sahədə müsbət irəliləyişlər olmuşdur. Kənd təsərrüfatının ümumi məhsulu 100 milyon 140 min manat təşkil edir ki, bu da ötən illə müqayisədə 31,6% çoxdur. Göstərilən dövrdə diri çəkidə 14 min 664 ton ət, 24 min 508 ton süd, 7 milyon 920 min ədəd yumurta, 280,2 ton yun istehsal olunmuşdur. Əvvəlki illə müqayisədə ət istehsalı 12,1 faiz, süd istehsalı 0,4 faiz, yumurta istehsalı 7,2 faiz, yun istehsalı isə 4,5 faiz artmışdır. 2017-ci ilin məhsulu üçün 51 min 154 hektar sahədən 118,7 min ton taxıl istehsal edilmişdir ki, hər hektardan orta məhsuldarlıq 23,2 sentner olmuşdur.

Rayonun aqrar sektorunda pambıqçılığın inkişafı əsas istiqamətlərimizdəndir. 2017-ci ildə əvvəlki illə müqayisədə 7,2 dəfə çox olmaqla 11111 hektar sahədə pambıq əkilmiş, 9096,5 ton pambıq toplanaraq tədarük məntəqələrinə təhvil verilmişdir. 2018-ci ildə rayonda 10000 hektar sahədə pambıq əkini nəzərdə tutulur. Bununla əlaqədar olaraq hazırda 8219 hektar torpaq sahəsi üçün 937 mülkiyyətçi ilə müqavilə bağlanmış, 7030 hektarda şum aparılmış və bu istiqamətdə tədbirlər davam etdirilir.

Bitkiçilik sahəsində yüksək məhsul götürmək məqsədi ilə meliorativ tədbirlərin həyata keçirilməsində müəyyən işlər görülmüşdür. Hesabat dövründə rayonun su və meliorasiya təşkilatları tərəfindən 422,0 km suvarma kanalları, 225,0 km kollektor-dren sistemi lildən təmizlənmiş, suvarma kanallarında 51 ədəd, kollektor-drenlərdə 83 ədəd hidrotexniki qurğular və nasos aqreqatları əsaslı və cari təmir edilmişdir.

Rayonda 14 min 500 hektardan yuxarı əkin sahələrinin suvarma suyu ilə təmin olunmasında ciddi çətinliklərin yaranması ilə əlaqədar Kür çayından Xol zonasına 25 km uzunluğunda Neftçala Magistral Kanalının nasos stansiyası ilə birlikdə layihəsinin tikintisinə 2006-cı ildə başlanmışdır. Kanalın 13,5 km hissəsində tikinti işləri başa çatmış, hal-hazırda qalan hissənin tikintisi davam etdirilir. Hesabat dövründə kanalın tikintisinə 5 milyon 830 min manat vəsait xərclənmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

Neftçala Rayon İcra Hakimiyyəti 2017-ci ildə rayon ərazisində təmir, tikinti və abadlıq işlərinin görülməsini diqqət mərkəzində saxlamış, həyata keçirilən işlərin keyfiyyətinə xüsusi önəm vermişdir. 2017-ci il ərzində Neftçala şəhərinin daxili avtomobil yollarının təmiri həyata keçirilmiş və 23450 m2 həcmində asfalt örtüyü salınmışdır.

Neftçala şəhəri Məhəmməd Əsədov küçəsi bina 1A və Üzeyir Hacıbəyov küçəsi bina 1B ünvanında çoxmənzilli yaşayış binalarının dam örtüyü əsaslı təmir olunmuşdur. Bundan başqa rayon ərazisində çoxmənzilli yaşayış binalarının fasad hissələrinin rənglənməsi işləri aparılmışdır.

**(Ardı 5-ci səhifədə)**

ÖTƏN İLİN TÖHFƏLƏRİ

# VƏ 2018-ci İLDƏ QARŞIDA DURAN VƏZİFƏLƏR

## başçısı cənab İ.M.Vəliyevin hesabat məruzəsi

(Əvvəli 4-cü səhifədə)




2016-cı ildə Neftçala Sənaye Məhəlləsində Azərbaycan Respublikasının "Azevrocar" MMC şirkətinin İran İslam Respublikasının "İran khodro" şirkəti ilə birgə həyata keçirdiyi layihə üzrə təməli qoyulmuş avtomobil istehsalı zavodunda hal-hazırda tikinti işləri davam etdirilməkdədir. Bundan əlavə Neftçala şəhər M.Səfərov adına internat məktəbinin tədris korpuslarının təmirində və yeni yataqxana binasının tikintisində də işlər davam etdirilir.

Neftçala rayonunda əkinə yararlı torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üçün 8000 hektar torpaq sahəsində hal-hazıra kimi 21 km uzunluğunda torpaq kanalının 20 km hissəsi lildən təmizlənmiş, eləcə də ərazidə 1 ədəd transformator yarımstansiyasının tikintisi tamamlanmış, burada gücü 4000 kvA olan 35/6 kv-luq transformator quraşdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 25 sentyabr 2017-ci il tarixli 3251 nömrəli Sərəncamı ilə Şorkənd-Beştalı-Bankə-Şirvanlı avtomobil yolunun tikintisinin başa çatdırılması





məqsədi ilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 21,5 milyon (iyirmi bir milyon beş yüz min) manatı "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ayırmışdır. Hal-hazırda həmin avtomobil yolunun tikintisinin tamamlanması yönündə son işlər aparılır.

Azərbaycan Respublikası Prezidentinin 25 sentyabr 2017-ci il tarixli 3250 nömrəli Sərəncamı ilə Neftçala şəhərində 35 çoxmənzilli binanın fasad hissəsinin və kommunikasiya xətlərinin əsaslı təmiri üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Neftçala Rayon



İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayırmışdır. Hazırda binaların fasad hissələrinin təmiri, kommunikasiya xətlərinin çəkilişi işləri həyata keçirilir.

Hesabat dövründə rayon ərazisində ictimai-siyasi sabitliyin qorunması, siyasi partiyalar, dini qurumlar, qeyri-hökumət təşkilatları ilə qarşılıqlı fəaliyyətin təşkili istiqamətlərində tədbirlər həyata keçirilmiş, humanitar sahədə dövlət siyasətinin icra olunması ilə bağlı bir çox məqsədyönlü işlər görülmüşdür.

Ötən il dövlət qurumlarının, qeyri - hökumət təşkilatlarının və rayon icra hakimiyyətinin birgə təşkilatçılıqları ilə bir sıra mühüm, yaddaqalan tədbirlər və aylıqlar təşkil edilmiş, bu tədbirlərdə vətəndaş cəmiyyətinin mühüm prinsipləri geniş təbliğ olunaraq ölkəmizdə aparılan uğurlu islahatların nəticələri diqqətə çatdırılmış və müxtəlif sahələri əhatə edən maarifləndirmə işləri həyata keçirilmişdir.

Yerli mətbuat orqanı olan "Gündoğar" rayon qəzetində ölkə rəhbərliyinin apardığı daxili və xarici siyasət təbliğ olunmuş, sosial-iqtisadi məsələlər geniş işıqlandırılmış, milli-mənəvi dəyərlərin təbliğinə dair materiallar dərc edilmişdir.

Hesabat dövründə ən mühüm ictimai-siyasi hadisə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rayonumuza səfəri olmuşdur. Belə ki, 24 sentyabr 2017-ci il tarixində cənab Prezident rayonumuza tarixi səfəri ilə bir neçə inzibati və sosial əhəmiyyətli obyektlərin açılışında iştirak etmişdir.

İlk öncə cənab Prezident xalqımızın ümummilli lideri Heydər Əliyevin Neftçala şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuş, sonra Prezident İlham Əliyev Neftçala Sənaye Məhəlləsinin açılışında iştirak edərək, orada rayon ictimaiyyətinin nümayəndələri ilə görüş keçirmişdir. Ölkə başçısı İlham Əliyev Neftçala Mərkəzi Rayon Xəstəxanasında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuş, 110/35/6 kV-luq "Neftçala" yarımstansiyasının açılışını etmiş, Kür çayından Neftçala Magistral Kanalı vasitəsilə rayonun əkin sahələrinə suvarma suyunun verilməsi mərasimində iştirak etmişdir. Sonda Prezident İlham Əliyev Neftçala rayonu ərazisində fermer Əlihüseyn Hacıyevin pambıq sahəsi ilə tanış olmuşdur.

Cənab Prezidentin rayonumuza səfəri həmçinin Neftçala şəhərində çoxmənzilli binaların əsaslı təmiri və Şorkənd-Beştalı-Bankə-Şirvanlı avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında imzaladığı 25 sentyabr 2017-ci il tarixli Sərəncamları ilə yadda qalmış və bu Sərəncamlar rayon sakinlərinin böyük sevincinə səbəb olmuşdur.

İl ərzində rayonun təhsil müəssisələrində təlim-tərbiyənin səviyyəsinin daha da yüksəldilməsi və təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı bir sıra işlər görülmüşdür. Belə ki, istedadlı şagirdlərin aşkara çıxarılmasında əhəmiyyətli rol oynayan fənn olimpiadalarının rayon və yarımfinal turları keçirilmiş, olimpiadanın final mərhələsində iştirak etmək hüququ əldə etmiş 5 iştirakçıdan 3 nəfəri tarix və Azərbaycan dili və ədəbiyyatı fənləri üzrə II və III yerə layiq görülmüş, qaliblər Təhsil Nazirliyinin medal və diplomları ilə mükafatlandırılmışlar.

Ali məktəblərə tələbə qəbulunda da əvvəlki illə müqayisədə 2016-2017-ci tədris ilində göstəricilər daha da yaxşılaşmışdır. Ötən il 640 məzundan 315 nəfəri ali məktəblərə qəbul imtahanlarında iştirak etmiş, onlardan 231 nəfəri ali məktəblərə qəbul olmuşdur. Tələbə adını qazananlardan 49 nəfəri 500-700 arasında bal toplamışdır ki, bunların da 16 nəfəri 600-dən yuxarı bal toplayanlardır.

Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsinin təşkili ilə bağlı seçim turları keçirilmiş, Şorkənd kənd ümumi orta məktəbinin şagirdi rayon üzrə ən yaxşı nəticə göstərərək respublika mərhələsində rayonumuzu təmsil etmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində il ərzində iki dəfə olaraq şagirdlər üçün respublikanın gəzməli-görməli yerlərinə turlar təşkil olunmuş, həmin turlarda Neftçala rayonundan olan məktəblilər də iştirak etmiş, rayon məktəblərindən seçilmiş 40 nəfər fəal şagird mart ayında Quba, Qusar, Xaçmaz rayonlarına, noyabr ayında isə Gəncə şəhərinə, Şəmkir və Göygöl rayonlarına ekskursiya etmiş, onlar həmin yerlərin tarixi, mədəniyyəti və gəzməli yerləri ilə tanış olmuşlar. Şagirdlərin yolasalma mərasimləri Azərbaycan televiziyasında işıqlandırılmış, onlar belə bir layihənin təşkilinə görə ölkə başçısına dərin minnətdarlıqlarını bildirmişlər.

Ötən tədris ilində təhsildə əldə etdiyi nailiyyətlərə görə Qədimkənd kənd tam orta məktəbinin tarix müəllimi Elçin Eybullayev Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən "Əməkdar müəllimi" Fəxri adına layiq görülmüşdür.

Təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də müvafiq addımlar atılmış, rayonun Yenikənd, Tatarməhlə, Mikayıllı və Sübh kəndlərində modul tipli məktəblərin tikintisi başa çatdırılmışdır. Ərəbqardaşbəyli kənd tam orta məktəbi üçün modul tipli təhsil müəssisəsinin tikintisi davam edir.

Hesabat dövründə rayonun tibb müəssisələrində əhaliyə göstərilən ambulator-poliklinik xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması istiqamətində işlər davam etdirilmişdir.

Yenicə istifadəyə verilmiş Neftçala Mərkəzi Rayon Xəstəxanasının bütün infrastrukturu tamamilə yenilənmiş, tibbin ən son nailiyyətləri olan avadanlıq və cihazlarla təmin edilmişdir. Xəstəxanadakı 11 şöbədə müxtəlif xəstəliklərin müayinə və müalicəsi mümkün olacaqdır.

Ölkə Prezidenti cənab İlham Əliyevin respublika əhalisinin ümumi profilaktik tibbi müayinələrə cəlb olunması barədə verdiyi tapşırığına əsasən ötən ilin fevral ayından may ayınadək tərtib edilmiş qrafikə əsasən həkim briqadaları tərəfindən rayonun idarə, müəssisə və təşkilatlarının kollektivlərinin, eləcə də yaşayış məntəqələri üzrə əhalinin tibbi müayinələrdən keçməsi təmin edilmişdir. Ümumilikdə rayon üzrə 59287 nəfər profilaktik tibbi müayinələrdən keçmişdir ki, bunun da 1642 nəfəri ambulator müalicəyə, 13 nəfəri stasionar müalicəyə cəlb olunmuş,16 nəfər isə Bakı şəhərinin müxtəlif tibb müəssisələrinə daha ixtisaslı müayinə və müalicə almaq üçün göndərilmişdir.

Hesabat dövrü ərzində rayonda mədəni xidmətin təşkili sahəsində müəyyən işlər görülmüş, bir sıra mədəni-kütləvi tədbirlər həyata keçirilmiş, əlamətdar və tarixi günlər münasibəti ilə ümumrayon bayram tədbirləri təşkil olunmuş, eləcə də peşə bayramları qeyd edilmişdir.

Əsl ideoloji mərkəzə çevrilən Heydər Əliyev Mərkəzində müxtəlif səpkidə tədbirlər təşkil olunmuşdur. Burada Ümummilli liderin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən foto və eksponatlarına baxışlar keçirilmişdir. Mərkəzdə həmçinin elektron kitabxana, xalçaçılıq və toxuculuq, rəqs və xalq çalğı alətləri, xarici dil dərnəkləri və digərləri fəaliyyət göstərir ki, bu dərnək və bölmələr gənclərin müxtəlif sənətlərin sirlərinə yiyələnməsinə, onların asudə vaxtlarının səmərəli təşkil edilməsinə geniş imkanlar yaradır.

Hesabat ilində rayonda gənclərlə bağlı dövlət siyasətinin həyata keçirilməsi, uşaq və gənclərin asudə vaxtlarının təşkili istiqamətində, bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı müəyyən işlər görülmüşdür.

Əlamətdar günlər münasibətilə məktəblərdə inşa yazı və rəsm müsabiqələri, gənclər arasında milli-mənəvi dəyərlərin və vətənpərvərlik hisslərinin yüksəldilməsi, gəncləri zərərli vərdişlərdən uzaqlaşdırmaq məqsədilə bir sıra tədbirlər həyata keçirilmiş, bədən tərbiyəsi və idman sahəsində müxtəlif yarış və birinciliklər təşkil olunmuş, müvafiq olaraq qaliblər diplom və qiymətli hədiyyələrlə təltif edilmişlər.

Hesabat dövründə rayonda ətraf mühitin qorunması və ekoloji təhlükəsizliyin təmin edilməsi məsələləri də diqqət mərkəzində saxlanılmış, rayonun idarə, müəssisə və təşkilatlarının kollektivlərinin iştirakı ilə iməciliklər təşkil olunmuşdur. İməciliklər zamanı şəhərin ayrı-ayrı küçə və meydanlarında, məhəllələrdə təmizlik və yaşıllaşdırma işləri aparılmış, minlərlə müxtəlif növ ağac və gül kolları əkilərək, onlara qulluq göstərilmişdir. Eyni zamanda qeyd etmək lazımdır ki, IDEA İctimai Birliyi, dəniz ətraf mühiti üzrə ixtisaslaşmış dünya şöhrətli "Blue Marine Foundation" (BMF) təşkilatı və Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Kür çayının deltasında "Təmiz Kür" adlı təmizlik aksiyası keçirilmiş, aksiyada IDEA İctimai Birliyinin 100-ə yaxın könüllüsü, yerli gənclər və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Kür çayının sahilləri müxtəlif məişət tullantılarından və yararsız balıqçılıq torlarından təmizlənmişdir.

Hesabat ilində Vətən uğrunda canlarını qurban vermiş igid oğullarımızın - Elimdar Səfərovun və Milli Qəhrəman Samid İmanovun rayon rəhbərliyinin və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə anım mərasimləri keçirilmiş, onlar böyük ehtiramla yad edilmiş və ehsan süfrələri təşkil olunmuşdur.



**Hörmətli yığıncaq iştirakçıları !**

Neftçala Rayon İcra Hakimiyyəti başçısı aparatı 2017-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Neftçala rayon şöbəsi ilə daimi yaxından əlaqə saxlamışdır. Hərbi xidmətə çağırışla bağlı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin çağırışla bağlı sərəncamlarına uyğun olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Neftçala rayon şöbəsi tərəfindən 2017-ci il ərzində normaya uyğun çağırışçı hərbi xidmətə cəlb olunmuşdur.

2017-ci il ərzində rayon polis şöbəsi tərəfindən rayon üzrə müxtəlif xarakterli 113 cinayət hadisəsi qeydə alınmışdır. Qeydə alınmış cinayətlərdən 31 fakt narkotik vasitələrlə bağlı olmuşdur. Ümumilikdə qeydə alınmış cinayətlərin açılması 96,4% təşkil edir. Rayon üzrə ümumi cinayətlərin sayı 2016-cı ilə nisbətdə 2017-ci ildə 9 cinayət faktı çox olmuşdur.

Rayon icra hakimiyyəti başçısı tərəfindən yerlərdə əhali ilə əlaqələri möhkəmləndirmək, onları narahat edən sosial problemlərin öyrənilməsi və həlli istiqamətində müvafiq tədbirlərin görülməsi ilə əlaqədar müntəzəm səyyar görüş və qəbulların keçirilməsi daim diqqət mərkəzində olmuşdur. Bununla bağlı rayon icra hakimiyyəti başçısının səyyar görüş və qəbullarının keçirilməsi üçün illik qrafik tərtib olunmuşdur.

2017-ci ildə rayon icra hakimiyyəti başçısı tərəfindən 44 səyyar görüş və qəbul keçirilmiş və bu görüşlərdə 4128 nəfər iştirak etmişdir. Keçirilən görüşlərdə 198 nəfər 136 tənqidi qeyd və təkliflə çıxışlar etmişdir ki, bunlardan 24-ü meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi, 29-u yolların təmiri, 13-ü təhsil müəssisələrinin təmiri və ya inşası, 21-i elektrik təsərrüfatının yenidən qurulması, 16-sı "mavi yanacaq"la təminat, 6-sı abadlıq və quruculuq işlərinin aparılması, 9-u içməli su ilə təminat, 2-si bankomatın quraşdırılması , 2-si işlə təminat, 5-i məişət tullantılarının daşınması, 2-si telefon çəkilişi və 7-si digər məsələlərdən ibarət olmuşdur. Vətəndaşlar tərəfindən qaldırılan tənqidi qeyd və təkliflər nəzarətə götürülmüş, həlli istiqamətində aidiyyəti üzrə müvafiq yuxarı orqan və təşkilatlar qarşısında məsələlər qaldırılmış və həlli yerlərdə mümkün olan problemlərin aradan qaldırılmasından ötrü tədbirlər həyata keçirilmişdir.

(Ardı 6-cı səhifədə)













# 2017-ci İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARI VƏ 2018-ci İLDƏ QARŞIDA DURAN VƏZİFƏLƏR

## Neftçala Rayonu İcra Hakimiyyətinin başçısı cənab İ.M.Vəliyevin hesabat məruzəsi

**(Əvvəli 5-ci səhifədə)**

Rayon icra hakimiyyəti başçısının şəhər, qəsəbə və kənd inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin 2017-ci ildə gördükləri işlərə dair yekun hesabatları keçirilmiş və bu hesabatlarda vətəndaşlar tərəfindən səslənən təkliflər, tənqidi qeydlər ümumiləşdirilmiş və həlli rayon səviyyəsində mümkün olan məsələlərin həllinə çalışılmış, digər məsələlərlə bağlı aidiyyəti yuxarı orqanlara müraciət edilmişdir. Qrafikə uyğun olaraq 18 inzibati ərazi nümayəndəliyinin hər birində rayon icra hakimiyyəti başçısı yanında Şura üzvlərinin və icra hakimiyyətinin məsul işçilərinin iştirakı ilə keçirilən bu yığıncaqlarda 2181 nəfər iştirak etmiş, 73 təklif verilmişdir.



2017-ci ildə rayon icra hakimiyyətinə vətəndaşlar tərəfindən 581 müraciət daxil olmuşdur ki, bundan 468 müraciət ərizə, 113 müraciət şikayət xarakterli olmuşdur. Tabeli qurumlara isə vətəndaşlar tərəfindən 22 müraciət daxil olmuşdur. Bundan 19 müraciət ərizə, 2 müraciət şikayət xarakterli olmuşdur. 2016-cı illə müqayisədə 2017-ci ildə rayon icra hakimiyyətinə vətəndaşlar tərəfindən daxil olan müraciətlərin sayı 118 müraciət, tabeli qurumlarda isə 23 müraciət az olmuşdur.

2017-ci ildə rayon icra hakimiyyətinə daxil olan vətəndaş müraciətlərinin 18 faizi həll edilib, 1,2 faizi qismən təmin olunmuş, 70,3 faizinə müvafiq izahat verilmiş, 3 faizi əsassız sayılmış, 5 faizi icradadır, 1 faizi isə baxılmaq üçün aidiyyəti təşkilatlara göndərilmiş, 1 faizi baxılmamış saxlanılmışdır

2017-ci ildə rayon icra hakimiyyəti başçısı tərəfindən 270 vətəndaş qəbul edilmişdir. O cümlədən, rayon icra hakimiyyəti başçısı aparatında 72 nəfər, səyyari qəbullarda 198 nəfər vətəndaş qəbul edilmişdir. Rayon icra hakimiyyəti başçısı aparatının vəzifəli şəxsləri tərəfindən 49 vətəndaş, tabeli qurumlarda isə 599 vətəndaş qəbul edilmişdir.

Rayon icra hakimiyyəti başçısı aparatında başçı tərəfindən qəbul olunmuş 72 nəfər vətəndaş müraciətləri mövzular üzrə araşdırılarkən 4 müraciət mənzil ilə təmin olunma, 42 müraciət işlə təmin olunma, 1 müraciət evin qəzalı olması, tikinti materialları ilə köməklik olunması, 12 müraciət torpaq məsələləri, 5 müraciət kommunal məsələləri, 5 müraciət elektrik enerjisi, qaz, su təchizatı məsələləri, 3 müraciət ünvanlı sosial yardım məsələlər barədə olmuşdur.

2017-ci ildə rayon icra hakimiyyətində vətəndaşların qəbulu, görüşlərin keçirilməsi həmçinin, rayon icra hakimiyyəti başçısı aparatında fəaliyyət göstərən operativ idarəetmə mərkəzində, videokonfrans zalında 18 inzibati ərazi dairəsi üzrə nümayəndəliyi əhatə etməklə həyata keçirilmiş, vətəndaşların müraciətləri dinlənilmiş və həlli istiqamətində müvafiq işlər görülmüşdür.

Rayon icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri cənab İlham Əliyevin göstərişlərini, imzaladığı fərman və sərəncamlarını, Azərbaycan Respublikasının Qanunlarını əldə rəhbər tutaraq qarşıya qoyulan vəzifələrin icrasını, vətəndaşların qəbulunu, onların müraciətlərinə baxılmasının səmərəliliyini artırmaq məqsədilə bundan sonra da lazımi tədbirlər görəcək və gələcək fəaliyyətində öz işini günün tələbləri səviyyəsində quracaqdır.

Sonra məruzə ətrafında müzakirələr oldu.



Rayon maliyyə idarəsinin rəisi Rəşid Manafov, Neftçala Sənaye Məhəlləsinin direktoru Nəriman Xəlilov, rayon kənd təsərrüfatı idarəsinin rəisi Mustafa Əliyev, rayon məşğulluq mərkəzinin direktoru Ceyhun Rəhimov və başqaları rayon icra hakimiyyətinin hesabat dövründəki fəaliyyətini yüksək qiymətləndirməklə yanaşı il ərzində gördükləri işlərdən də danışmış, fikir və mülahizələrini bildirmişlər.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin məsul işçisi İbrahim Mustafayev, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Milli Məclisin Regional Məsələlər Komitəsinin sədri Arif Rəhimzadə çıxış edərək 2017-ci ildə qazanılan böyük nailiyyətlərlə yanaşı qarşıda duran məsul vəzifələrə də geniş aydınlıq gətirmişlər.

Hesabat yığıncağında müzakirə olunan məsələ ilə əlaqədar geniş qərar və yığıncaq iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri cənab İlham Əliyevə müraciət qəbul olunmuşdur.

Sonda rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyev salondakıların alqışları altında Prezident İlham Əliyevin sərəncamları ilə təltif olunmuş Əlihüseyn Xanhüseyn oğlu Hacıyevin 2-ci dərəcəli "Əmək" ordenini və Eyvaz Xotkar oğlu Əliyevin "Tərəqqi" medalını sahiblərinə təqdim etmişdir.

# RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISI YANINDA ŞURA İCLASI QƏRARA ALIR:

1.Neftçala Rayonu İcra Hakimiyyəti başçısının 2017-ci ildə rayonun sosial-iqtisadi inkişafının yekunları ilə bağlı hesabat məruzəsi nəzərə alınsın;

2.Rayon İcra Hakimiyyətinin və onun tabe strukturlarının 2017-ci ildə rayonun sosial-iqtisadi inkişafı sahəsində gördüyü işlər qənaətbəxş hesab edilsin;

3.Rayon İcra Hakimiyyəti başçısı aparatının aidiyyəti şöbələrinin rəhbərlərinə tapşırılsın ki, sahibkarlığın inkişafı, əhalinin məşğulluğunun təmin edilməsi və yeni iş yerlərinin yaradılması istiqamətində bütün mümkün imkanlardan istifadə edilərək təxirəsalınmaz tədbirlər görülsün;

4.Rayon İcra Hakimiyyəti başçısının aparatına, idarə, müəssisə və təşkilat rəhbərlərinə, şəhər, qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndələrinə tapşırılsın, bələdiyyə sədrlərinə tövsiyə edilsin ki, 2017-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda ölkə başçısı tərəfindən qarşıya qoyulan vəzifələr əsas götürülsün, rəhbərlik və icra üçün qəbul edilsin;

5.Rayon İcra Hakimiyyəti başçısı aparatının sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinə, inzibati ərazi dairəsi üzrə nümayəndələrinə tapşırılsın, bələdiyyə sədlərinə, kənd təsərrüfatı ilə məşğul olan bütün idarələrin rəhbərlərinə tövsiyə edilsin ki, rayonda aqrar sahənin, xüsusilə pambıqçılığın inkişaf etdirilməsi və kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq məqsədilə, fermer təsərrüfatlarının, torpaq mülkiyyətçilərinin fəaliyyətinə lazımi köməklik göstərməklə, meydana çıxmış problem və çətinliklərin qısa vaxt ərzində aradan qaldırılmasına nail olsunlar;

6.Rayon Kənd Təsərrüfatı idarəsinin rəisi M.Əliyevə tövsiyə edilsin ki, aqrar sahənin prioritet istiqaməti olan pambıqçılığın inkişafı sahəsində aqrotexniki qaydaların fermerlərə, sahibkarlara izahı ilə bağlı mütəmadi maarifləndirici tədbirlər həyata keçirsin, rayon ərazisində becərilməsi nəzərdə tutulan pambıq sahələrində monitorinq aparsın, qarşıya çıxan çətinliklərin həllinə nail olsun;

7.Rayon Suvarma Sistemləri idarəsinin rəisi E.Əsədova tövsiyə edilsin ki, rayon ərazisində pambıq sahələrinin aqrotexniki qaydaların tələblərinə uyğun suvarılmasına, suvarma kanallarının lildən təmizlənməsinə, hidrotexniki qurğuların, nasos stansiyalarının işlək vəziyyətdə saxlanmasına diqqəti artırsın;

8.Rayon İcra Hakimiyyəti başçısının şəhər, qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndələrinə tövsiyə edilsin ki, yerlərdə sosial-iqtisadi inkişafının sürətləndirilməsi, tikinti-quruculuq və abadlıq işlərinin daha da genişləndirilməsi, əhalinin elektrik enerjisi, təbii qaz və içməli su ilə normal təmin olunması istiqamətində aidiyyəti qurumlarla birgə müvafiq tədbirlər həyata keçirsinlər;

9.Rayon üzrə Maliyyə İdarəsinin müdiri R.Manafova tövsiyə edilsin ki, büdcə vəsaitindən daha səmərəli və məqsədyönlü istifadə edilməsini, büdcəyə daxil olan vəsaitin təyinatı üzrə xərclənməsini, əmək haqqı və ona bərabər tutulan digər ən zəruri maddələrin maliyyələşdirilməsini təmin etsin, büdcə təşkilatlarında maliyyə intizamının möhkəmləndirilməsini daha da gücləndirsin;

10.Rayon Elektrik Şəbəkəsinin rəisi V.Şirəliyevə tövsiyə edilsin ki, rayonda elektrik təsərrüfatının maddi-texniki bazasının gücləndirilməsi, əhalinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi istiqamətində zəruri tədbirlər görülməsini təmin etsin;

11.Salyan Regional Qaz İdarəsinin rəisi İ.Şahmirzəyevə tövsiyə edilsin ki, rayonun bütün yaşayış məntəqələri üzrə əhalinin təbii qaza olan ehtiyacını tam ödəmək üçün təsirli tədbirlər görsün;

12.Rayon Məşğulluq Mərkəzinin direktoru C.Rəhimova tövsiyə edilsin ki, əhalinin məşğulluq səviyyəsinin artırılması, işsizliyin aradan qaldırılması istiqamətində maarifləndirici tədbirlər keçirsin;

13.Rayon "Su Kanal " İdarəsinin rəisi N.Manafova tövsiyə edilsin ki, rayon əhalisinin standartlara uyğun, o cümlədən ekoloji cəhətdən təmiz içməli su ilə təmin edilməsi, su təmizləyici stansiyada içməli su anbarlarının sanitar-gigiyenik normalara uyğun saxlanmasını təmin etsin, şəhərin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsinin həyata keçirilməsi ilə bağlı zəruri tədbirlər görsün;

14.Rayon İcra Hakimiyyəti başçısının Neftçala şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi Z.Kərimova və Neftçala rayonu İcra Hakimiyyəti başçısı yanında Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin rəisi vəzifəsini müvəqqəti icra edən M. Miriyevə tövsiyə edilsin ki, şəhərdə tikinti-quruculuq və abadlıq işlərinin aparılması, məişət tullantılarının vaxtında daşınıb zərərsizləşdirilməsi, mənzil fondunun qorunub saxlanılması, mənzil kirayə və digər xidmət haqlarının vaxtında toplanması üçün lazımi tədbirlər görülsün, şəhərin park və xiyabanlarının, küçə və meydanlarının, Kür çayı sahillərinin yaşıllaşdırılmasına və onlara qulluq edilməsinə xüsusi diqqət yetirilsin.

15.Rayon Təhsil Şöbəsinin müdiri Ə.Kərimova tövsiyə edilsin ki, ümumtəhsil məktəblərində təhsilin maddi-texniki bazasının gücləndirilməsi, qəzalı və yararsız olan məktəb binalarının əsaslı təmiri, əlavə sinif otaqlarının tikintisi, kompüterlərlə təmin olunaraq internetə qoşulması istiqamətində tədbirlər həyata keçirsin.

16.Rayon Mərkəzi Xəstəxanasının baş həkimi T.Zahidova tövsiyə edilsin ki, əhaliyə göstərilən səhiyyə xidmətinin daha da yaxşılaşdırılması üçün tibb müəssisəsi olmayan kəndlərdə tibb məntəqələrinin tikilməsi, şəhər, qəsəbə və kəndlərdə yerləşən xəstəxana, poliklinika, həkim ambulatoriyaları və feldşer-mama məntəqələrinin əsaslı surətdə təmir olunması və istilik sistemlərinin bərpası, kadrların düzgün yerləşdirilməsi və onların peşə hazırlığının yüksəldilməsi istiqamətində təsirli tədbirlər həyata keçirsin.

17.Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru X. Məmmədova tövsiyə edilsin ki, antisanitariya səbəbindən yoluxucu xəstəliklərin əmələ gəlməsi və bu xəstəliklərin vaxtında qarşısının alınması istiqamətində zəruri profilaktik tədbirlər görülməsini təmin etsin.

18.Biləsuvar Regional Mədəniyyət və Turizm idarəsinin rəisi E. Hüseynova tövsiyə edilsin ki, rayonun şəhər, qəsəbə və kəndlərində fəaliyyət göstərən mədəniyyət evləri, klub və kitabxanaların əsaslı təmir edilməsi, əhaliyə göstərilən mədəni xidmətin səviyyəsinin yüksəldilməsi, tarixi və memarlıq abidələrinin qorunub saxlanması, mədəni-kütləvi tədbirlərin müntəzəm keçirilməsi diqqətdə saxlanılsın, mədəniyyət evləri, klub və kitabxanalar ixtisaslı kadrlarla, zəruri inventar və avadanlıqlarla təmin edilsin.

19.Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Neftçala rayon şöbəsinin müdiri R.Salmanova tövsiyə edilsin ki, əhalinin sosial müdafiəsi və onların rifahının daha da yaxşılaşdırılması istiqamətində qanunvericilikdə edilən dəyişikliklərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi və pensiyaçıların sosial müdafiəsinin daha da gücləndirilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirilsin, vətəndaşların qəbulu və onların müraciətlərinə baxılması işinə diqqət daha da artırılsın.

20.Rayon İcra Hakimiyyəti başçısının aparatına, idarə, müəssisə və təşkilat rəhbərlərinə, şəhər, qəsəbə, kənd inzibati ərazi dairəsi üzrə nümayəndələrinə tapşırılsın, bələdiyyə sədrlərinə tövsiyə edilsin ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması ilə bağlı tarixi keçmişimizin geniş təbliği, Azərbaycanın zəngin dövlət quruculuğu təcrübəsinin və milli-mənəvi dəyərlərimizin gənc nəslə çatdırılması məqsədilə müvafiq tədbirlər həyata keçirsinlər.

21.Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Neftçala Rayonu İcra**
**Hakimiyyətinin başçısı**
**İ.M. Vəliyev**

# Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri cənab İlham Heydər oğlu Əliyevə

## Neftçala rayonunda 2017-ci ilin yekunlarına həsr olunmuş hesabat yığıncağı iştirakçılarının müraciəti

**Möhtərəm cənab Prezident!**

Biz, Neftçala rayonunda 2017-ci ilin yekunlarına həsr olunmuş hesabat yığıncağının iştirakçıları böyük minnətdarlıq hissi ilə vurğulayırıq ki, ümummilli liderimiz Heydər Əliyev siyasətini və diplomatiyasını ən incəliklərinədək mənimsəmiş layiqli siyasi varis kimi ölkəmizin davamlı və sabit inkişafının təmin olunması üçün həyata keçirdiyiniz məqsədyönlü tədbirlər, dövlətimizin bölgədə lider ölkəyə çevrilməsində əvəzsiz xidmətləriniz xalqımız tərəfindən yüksək dəyərləndirilir. Sizin rəhbərliyiniz ilə müstəqil Azərbaycanımızın beynəlxalq aləmdə qazandığı nailiyyətlər, regionlarımızın gündən-günə abadlaşması hər kəsi hədsiz sevindirir, bizi daha əzmlə işləməyə, xalqa xidmət etməyə həvəsləndirir.

Bu yaxınlarda Sizin rəhbərliyinizlə keçirilən müəllifi olduğunuz regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfrans və bölgələrimizin daha da inkişafı ilə bağlı verdiyiniz göstərişlər regionlarımızın potensialının artmasına, əhalinin rifah halının yüksəlməsinə göstərdiyiniz diqqətin bariz nümunəsidir.

Bütün istiqamətlərdə qəbul olunmuş Dövlət proqramlarının icrası ölkəmizin siyasi, iqtisadi və sosial sahələrdə dinamik və hərtərəfli inkişafını təmin etmişdir. Bunun nəticəsidir ki, ötən ildə Azərbaycanda xarici ticarət dövriyyəsi 19%, qeyri-neft sənayesi 3,6%, kənd təsərrüfatı 4,1% artmış, ölkəmizin valyuta ehtiyatlarında 4,5 milyard dollar artım müşahidə edilmişdir.

**Hörmətli cənab Prezident!**

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində, ölkəmizin ərazi bütövlüyünün bərpası üçün reallaşdırdığınız önəmli diplomatik işləri xalqımız yüksək qiymətləndirir. Bütün bunların məntiqi nəticəsidir ki, bir çox nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini birmənalı şəkildə dəstəkləyir, həmçinin BMT Təhlküəsizlik Şurasının qərarına uyğun olaraq ermənilərin işğal altındakı torpaqlarımızdan geri çəkilmələri tələbləri irəli sürülür.

Bu yaxınlarda keçirilən Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Zirvə toplantısında qəbul edilmiş Bəyannamədə də "Şərq tərəfdaşlığı"na üzv olan ölkələrin ərazi bütövlüyü, suverenliyi Avropa İttifaqı tərəfindən birmənalı şəkildə dəstəklənmişdir ki, bu da işğalçı Ermənistana növbəti böyük zərbə olmuşdur. Əminik ki, yorulmaz fəaliyyətiniz və möhkəm siyasi iradəniz Ermənistanı mövcud reallıqları qəbul etməyə, bütün dünya ictimaiyyətini Qarabağ həqiqətlərini tanımağa məcbur edəcək, münaqişənin həlli istiqamətində apardığınız diplomatik səylər öz bəhrəsini verəcək, yürütdüyünüz uğurlu siyasət nəticəsində torpaqlarımız tezliklə işğaldan azad olunacaq və məcburi köçkünlərimiz doğma yurd-yuvalarına qovuşacaqlar.

**Hörmətli cənab Prezident!**

Azərbaycanın dövlət müstəqilliyi illərində ümummilli lider Heydər Əliyevin və Sizin böyük qayğınız sayəsində Neftçala rayonu çox böyük inkişaf yolu keçmişdir. Biz neftçalalılar gündəlik həyatımızda hər an Sizin qayğınızı hiss edirik. Ötən il rayonumuza növbəti tarixi səfəriniz zamanı Neftçalada aparılan abadlıq, tikinti və quruculuq işləri ilə yaxından tanışlığınız, bir sıra mühüm obyektlərin açılışında iştirakınız və rayon sakinləri ilə keçirdiyiniz görüş yaddaşlarımızda əbədi iz buraxmışdır və neftçalalılar hələ də böyük iftixar hissi ilə o anları xatırlayırlar.

Rayonumuz günbəgün abadlaşır, yeni iqtisadi, sosial, infrastruktur layihələr icra edilir və artıq Neftçala ölkənin sənaye mərkəzlərindən birinə çevrilir. Sizin diqqət və qayğınız nəticəsində ötən il rayonda Neftçala Sənaye Məhəlləsi, 110 KV-luq Neftçala yarımstansiyası istifadəyə verilmiş, mərkəzi rayon xəstəxanası yenidən qurulmuş, neçə-neçə sosial yönümlü obyektlərin tikintisi və əsaslı şəkildə təmiri həyata keçirilmiş, istehsal və emal müəssisələri yaradılmışdır. Bu gün də rayonumuzda abadlıq-quruculuq işləri uğurla davam etdirilir. Hazırda Neftçala Magistral Kanalının inşası, Şorkənd-Beştalı-Bankə-Şirvanlı avtomobil yolunun yenidən qurulması, Neftçala şəhərində çoxmənzilli binaların əsaslı təmiri işləri aparılır. Bu böyük və əvəzsiz qayğıya görə rayon sakinləri Sizə öz dərin hörmət və ehtiramlarını bildirirlər.

**Hörmətli cənab Prezident!**

Böyük qürur hissləri ilə qeyd edirik ki, biz neftçalalılar, ulu öndər Heydər Əliyev ideyalarına sadiq olmaqla, Sizin apardığınız daxili və xarici siyasəti bundan sonra da ürəkdən dəstəkləyəcək, ölkəmizin sosial-iqtisadi inkişafının sürətləndirilməsi naminə qarşıya qoyduğunuz vəzifələrin həll olunması üçün var qüvvəmizlə çalışacaq və bu yolda bütün səy və bacarıqlarımızı daha da artıracağıq. Doğma Vətənimizin inkişafı naminə gərgin və səmərəli fəaliyyətinizdə Sizə böyük uğurlar arzulayırıq.

**Dərin hörmətlə,**
**Neftçala rayon ictimaiyyəti**
**nümayəndələri adından,**
**rayon icra hakimiyyətinin başçısı**
**İ.M.Vəliyev**

**(Müraciət Neftçala rayonu ictimaiyyəti nümayəndələrinin 02 fevral 2018-ci il tarixində keçirilmiş hesabat yığıncağında qəbul edilmişdir.)**

## 2018-ci il — ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli"dir

# ŞƏRQDƏ İLK DEMOKRATİK DÖVLƏT BELƏ YARANDI

**Bu il Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmasından 100 il keçir. Bununla bağlı möhtərəm Prezidentimiz İlham Əliyev 10 yanvar 2018-ci il tarixli Sərəncamı ilə 2018-ci ili Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etmişdir. Sərəncama əsasən il ərzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfli tarixi bir-bir vərəqlənəcək, ölkəmizdə və ölkə xaricində silsilə tədbirlər həyata keçiriləcəkdir. Bununla əlaqədar hazırladığımız ilk yazımız da məhz o illərə işıq salır.**



1918-ci il mayın 26-da Zaqafqaziya Seymi buraxıldı. Bundan dərhal sonra — mayın 27-də isə seymin Azərbaycan fraksiyası yaranmış siyasi vəziyyəti müzakirə etmək üçün fövqəladə iclas çağırdı. Uzun müzakirədən sonra Müvəqqəti Milli Şura yaratmaq qərara alındı. Müvəqqəti Milli Şuranın sədri vəzifəsinə M.Ə.Rəsulzadə (Müsavat Partiyası), İcraiyyə Komitəsinin sədri vəzifəsinə isə Fətəli xan Xoyski (bitərəf) seçildi. 1918-ci il mayın 28-də Tiflis şəhərində Azərbaycan Milli Şurası sədrinin müavini Həsən bəy Ağayev, katib Mustafa Mahmudov və digər nümayəndələr müəyyən edildi.

Ancaq 1918-ci ilin yayında Azərbaycanda siyasi vəziyyət mürəkkəbləşdi, ölkədə ikihakimiyyətlilik yarandı. Belə ki, Azərbaycanın şərq hissəsi — Bakı quberniyası burada fəaliyyət göstərən Xalq Komissarları Sovetinin, qərb hissəsi — Gəncə quberniyası isə Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti altına düşdü. O vaxt Azərbaycanın beynəlxalq vəziyyəti olduqca qarışıq, dolaşıq, mürəkkəb idi. Burada Böyük Britaniya, Almaniya və bolşeviklər Rusiyası kimi üç böyük ölkənin siyasi və iqtisadi maraqları toqquşurdu. Belə bir qarışıq vəziyyətdə dadımıza yenə türk qardaşlarımız çatdılar. Bu ölkədən gələn Qafqaz İslam Ordusunun apardığı uğurlu əməliyyatlar Azərbaycanda təzə təşkil olunmuş demokratik dövlətin mövqelərini möhkəmləndirdi, onun normal fəaliyyət göstərməsi üçün əlverişli şərait yaratdı.

1918-ci il sentyabr ayının 15-də Türk Qafqaz İslam ordusu Bakını daşnak-bolşevik işğalından tam azad edərək ölkənin bütövlüyünü təmin etdi. Daha sonra isə Müəssislər Məclisinə seçkilər keçirildi. O vaxt bunun üçün xüsusi komissiya fəaliyyət göstərirdi.

1918-ci il noyabr ayının 29-da Məhəmməd Əmin Rəsulzadənin imzası ilə Milli Şuranın "Bütün Azərbaycan əhalisinə müraciət"i dərc olundu. Gənc respublikanın taleyinin həll edildiyi bir vaxtda onun rəhbərlərinin çağırışını müsbət qarşılayan əhali yüksək vətənpərvərlik nümayiş etdirərək Azərbaycanın istiqlalı şüarı ilə keçirilən seçkilərdə xüsusi fəallıq göstərdilər. Nəhayətdə Azərbaycan parlamentli respublika kimi bərqərar oldu.

Parlamentin əsas özəyini keçmiş Milli Şuranın 44 üzvü təşkil edirdi. 1918-ci il dekabrın 7-də Müsəlman Şərqi tarixində ilk dəfə olaraq parlament, Azərbaycan Xalq Cümhuriyyətinin ali qanunvericilik orqanı öz işinə başladı. Beləliklə, hələ heç bir dövlət tərəfindən tanınmamış respublika öz varlığını və demokratiya prinsiplərinə bağlılığını bütün dünyaya nümayiş etdirdi. Həmin gün "Azərbaycan" qəzeti iftixarla yazırdı: "Tarixi hadisələrin gedişilə bizlər dövlətçiliyimizin baniləri və xalqların öz müqəddəratını təyin etməsi şüarı ilə yayılan yeni siyasi hərəkatın pionerləri olduq."

AXC-nin ilk hökumət kabinetinin qarşılaşdığı mütləq həll etməli olduğu çox mühüm məsələlərdən biri də Cənubi Qafqazda yaranmış respublikalarla, həmçinin digər qonşu ölkələrlə dostluq əlaqə və münasibətləri qurmaq vəzifəsi idi. O vaxt bu məsələ də, çətinliklə də olsa, yoluna qoyuldu, müəyyən güzəştlərlə vaxtsız münaqişələrin qarşısı alındı.

Parlamentin 1918-ci il 10 dekabr tarixli iclasında fraksiyalar fəaliyyətlərinin əsas prinsip və məqsədlərini əks etdirən Bəyannamələrini açıqladılar. 1918-ci il dekabrın 13-də qüvvətli hakimiyyətin yaranması, onun həm daxili, həm də xarici siyasətində məhsuldar fəaliyyət göstərməsi parlamentdə təmsil olunmuş siyasi cərəyanlardan asılı olmayan koalisiyalı hakimiyyətin, cəmiyyətdəki bütün təbəqələri demokratiya platformasında birləşdirən güclü mərkəzin — parlamentin formalaşması əsasında mümkün oldu. 1919-cu il yanvarın 8-də parlamentdə ölkənin daxili, iqtisadi və siyasi sahələrində mövcud olan vəziyyət barədə məlumatlar dinlənildi. Aprelin 14-də isə Azərbaycan parlamenti 4-cü hökumət kabinəsini təşkil etdi. Nazirlər Şurasının sədri və daxili işlər naziri Nəsib bəy Yusifbəyov seçildi. 1919-cu il mayın 13-də bolşevik-daşnak ünsürlər Bakıda sənaye fəhlələrinin hökumətə qarşı tətilini keçirdilər. Ancaq bolşevik quldur dəstələrinin bu səyləri heç bir nəticə vermədi.

AXC-yə qarşı fitnələr durmadan davam etdirilirdi. Petrov şəhərini işğal altına alan Denikin ordusu sürətlə cənuba doğru hərəkət edirdi. Azərbaycanla Sovet Rusiyası arasında bufer dövləti rolunu oynayan Dağlılar Respublikasının süqutu Azərbaycan üçün birbaşa təhlükə yaratmışdı. Denikinin sürətlə irəliləməsi ciddi təşviş doğururdu. Bununla bağlı AXC-nin Xarici İşlər Nazirliyi müttəfiq qoşunların komandanlığından Könüllülər Ordusu qoşun hissələrinin Dağıstandan çıxarılması üçün hər cür qəti və təxirəsalınmaz tədbirlər görülməsini tələb etmişdi. Mübarizəsini demokratik səviyyədə davam etdirən Azərbaycan hökuməti Denikinə böyük köməklik göstərən ingilis komandanlığına da dəfələrlə müraciət etmişdi.

İngilis qoşunlarının Azərbaycandan çıxarılması ölkənin gələcək taleyinə aid yeni sualları ortaya çıxardı. Denikin ordusu, Sovet Rusiyası Azərbaycan üçün ciddi təhlükə olaraq qalırdı.

1920-ci ilin yazında müsəlman partiya və qruplaşmalar — "Müsavat", "Əhrar", "İttihad", sosialistlər, kommunistlər, bitərəflər arasında mübarizənin güclənməsi respublikada siyasi durumu pozan və sabitsizliyi dərinləşdirən mühüm amillərdən idi. Ancaq bu mübarizənin qarşısını almaq, onu söngitmək mümkün deyildi.

1920-ci ilin yazında Qızıl Ordunun Qafqaza çıxmasının Yaxın və Orta Şərqdə İngiltərənin mənafeyinə ciddi təhlükə törətməsinə baxmayaraq, Lord Corc hökuməti Sovet Rusiyası ilə ticarət — iqtisadi əlaqələri qaydaya salmaq xətti götürürdü. Artıq martın 23-də Baş komandan Kamenev Qızıl Ordunun Qafqazda Bakı istiqamətində əməliyyatlarının genişlənməsi barədə hökumət direktivinin həyata keçirilməsinə başladığı haqda Fəhlə-Kəndli Müdafiə Şurasına məlumat vermişdi. Bakıda üsyan başladığı halda birgə hərəkəti əlaqələndirmək məqsədilə RK(b)P Qafqaz Diyar Komitəsinin bürosu, AK(b)P və Kirovun başçılıq etdiyi XI ordunun komandanlığı arasında yazışmalar bütün aprel ayı ərzində davam etdi. Bu plan aprelin 27-də Bakıda kommunistlərin silahlı çıxışını və bunun ardınca XI ordunun Azərbaycan sərhədlərini keçməsini nəzərdə tuturdu. Nəhayət, 28 aprel 1920-ci ildə Yaxın və Orta Şərqdə ilk demokratik dövlət olan AXC-yə qarşı tarixdə misli görünməmiş qanlı terror başladı. AXC hakimiyyətinin devrilməsi daxili və xarici səbəblərin nəticəsi idi. Bu, ilk növbədə Şərqdə ilk müstəqil dövlətin mövcud olmasını arzulamayan Moskva kommunistlərinin, milli satqınların xəyanətinin nəticəsi idi. Beləliklə, aprel çevrilişi xarici qüvvənin, "ildırım sürətli öldürücü" qüvvənin yürüşü nəticəsində baş verdi. Daxili səbəblər isə hökumət böhranı, Qarabağ münaqişəsi, silahlı üsyana hazırlıqda yerli kommunistlərin fəal iştirakı idi. Bütün bu səbəblər birləşərək Qızıl Ordunun ölkəni istila etməsinə əlverişli şərait yaratdı.

Cümhuriyyətin yaradılması uğursuzluğuna, cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan xalqının tarixi taleyində çox mühüm rol oynadı, unudulmaz bir hadisə kimi yaddaşlarda qaldı. O, qısa bir vaxt ərzində parlamenti, hökuməti, ordusu və pul vahidi olan demokratik respublikaya çevrildi.

18 oktyabr 1991-ci ildə Azərbaycan özünün ikinci dəfə Dövlət Müstəqilliyini elan etdi. Çox keçmədən ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dünyada tanınmağa başladı, inkişaf etmiş ölkəyə çevrildi. Ümummilli lider Heydər Əliyevin layiqli yetirməsi İlham Əliyev bu yolu ardıcıllıqla davam etdirərək müstəqil Azərbaycana yeni-yeni uğurlar qazandırdı, onun dünyadakı nüfuzunu xeyli dərəcədə möhkəmləndirdi. Möhtərəm Prezidentimiz İlham Əliyevin qəbul etdiyi "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin keçirilməsi barədə"ki qərarı tarixi keçmişimizə göstərilən böyük hörmətin və ehtiramın bariz nümunəsidir. Yenidən öz müstəqilliyini əldə etmiş Azərbaycan Respublikası bu gün iqtisadi və siyasi sahədə yeni-yeni nailiyyətlər qazanır, dünyanın lider dövlətlərindən birinə çevrilir.

Ulu öndər Heydər Əliyevin vaxtı ilə dediyi "Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir" sözləri öz təsdiqini tapıb, bu gün artıq reallıq, gerçəlikdir. Ona görə ki, bu yol haqq və ədalət yoludur.

**İmamverdi ZEYNALOV**

# GƏNCLİYİN BAYRAMINDA

Müstəqilliyimizi əldə etdikdən sonra qazandığımız bütün uğurlarda, nailiyyətlərdə gənclərin, gəncliyin də özlərinə layiq zəhmət payları vardır. Özü də təkcə müstəqillik dövründə deyil, elə əvvəlki dövrlərdə də gənclik sözünü həmişə deyib, çalışıb, vuruşub, qalib gəlib, həyatın bütün sahələrində xarüqələr yaradıb. Elə buna görə ulu öndər Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə gənclərə, gəncliyə daim böyük qayğı ilə, diqqətlə yanaşıb, onların sağlam inkişafı, yaxşı təhsil almaları, vətənpərvərlik ruhunda yetişmələri üçün ardıcıl iş aparıb, lazımi tədbirlər həyata keçirib.

Müstəqilliyimizi qazandıqdan sonra bu qayğı və diqqət xüsusilə artıb. Ümummilli lider yetişməkdə olan gənc nəslə sabahın qurucuları kimi baxırdı. Böyük inamla bu gün başlanılan işlərin gənclər tərəfindən davam etdiriləcəyini, sabahımızı, gələcəyimizi məhz onların müəyyənləşdirəcəyini söyləyirdi. Hər il fevral ayının 2-nin — Müstəqil Azərbaycan Gənclərinin I Forumunun işə başladığı günün ölkəmizdə Gənclər Günü kimi təsis olunması da ulu öndərin gənclərə, gənc nəslə olan qayğısının bariz nümunəsi idi. Tarixi sərəncamın imzalandığı vaxtdan — 1 fevral 1997-ci ildən gənclər öz bayramlarını həmişə böyük sevinclə, ümumi fərəh içində qeyd edərək xoş, unudulmaz gün yaşayırlar.

Gənclərə, gəncliyə qayğı və diqqət dünən necə idisə, bu gün də elədir. İctimai həyatımızın bütün sahələrində ulu öndərin yoluna, siyasi kursuna sadiq olan, bu işıqlı yolu, kursu yeni yaradıcılıqla, zamanın tələblərinə uyğun şəkildə davam etdirərək ölkəmizə yeni-yeni uğurlar qazandıran Prezident İlham Əliyev də gənclərə inanır, onların xoşbəxtliyi üçün əlindən gələni əsirgəmir. Hər il tikilərək istifadəyə verilən çoxlu sayda yeni müasir məktəblər, sağlamlıq müəssisələri, idman kompleksləri və görülən digər işlər gənclərin normal inkişafına, Vətənimizə layiq vətəndaşlar kimi yetişməsinə xidmət edir.

Respublikamızda olduğu kimi gənclər rayonumuzda da qayğı ilə əhatə olunmuşlar. Onların inkişafı, sağlamlıqları, yaxşı təhsil almaları üçün burada da ardıcıl tədbirlər görülür. Elə buna görə neftçalalı gənclər də təhsildə, idmanda, əməkdə Vətənə xidmətdə müsbət nəticələrə nail olur, uğurlarının sayını durmadan artırırlar. Ötən il də onlar üçün unudulmaz hadisələrlə doludur. Rayonumuzun gəncləri ali məktəblərə tələbə qəbulunda, respublika və beynəlxalq idman yarışlarında, müsabiqələrdə layiqli uğurlar qazanaraq doğma Neftçalamıza başucalığı gətirmişlər. Onların əziz bayramlarına — Gənclər Gününə yüksək əhvali-ruhiyyə ilə gəlmələri də bununla bağlı idi.



Heydər Əliyev Mərkəzində keçirilən bayram tədbirində əsl sevinc yaşanırdı. Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevin, Prezident Administrasiyasının məsul işçisi hörmətli İbrahim Mustafayevin, Milli Məclisin Regional Məsələlər Komitəsinin sədri, rayonumuzun deputatı hörmətli Arif Rəhimzadənin gənclərlə birlikdə olması onların sevincini daha da artırmışdı. Başçı aparatının məsul işçilərinin, ayrı-ayrı idarə və müəssisələrin rəhbərlərinin, digər şəxslərin də gənclərin yanında olmaları onlara olan diqqətdən irəli gəlirdi.

Rayon gənclər və idman idarəsinin rəisi Yalçın Miriyev gənclərə göstərdiyi qayğı və diqqətə görə dövlət başçısı cənab İlham Əliyevə, həmişə onların yanında olan, gənclərin təşəbbüslərini dəstəkləyən rayon rəhbərinə səmimi minnətdarlığını bildirdi. Əminliklə vurğuladı ki, neftçalalı gənclər bundan sonra da müstəqil Azərbaycanımızın çiçəklənməsinə xidmət edən tədbirlərin daim önündə gedəcəklər, rayonumuzda görülən işlərdə fəal iştirak edəcəklər.

Tədbirdə iştirak edən rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, rayonumuzun deputatı hörmətli Arif Rəhimzadə gəncləri təbrik edərək onlara yeni-yeni uğurlar arzuladılar. Digər qonaqlar da gənclərə xoş arzularını bildirdilər.

Həmin gün bir-birindən şirin dəqiqələr yaşayan gənclər yəqin ki, bu gözəl, unudulmaz günü heç vaxt unutmayacaq, həmişə xatırlayacaqlar.

**Murad ƏHMƏDOV**

# BOL MƏHSULUN BÜNÖVRƏSİ İNDİDƏN QOYULUR

**2018-ci ildə kənd təsərrüfatı işçilərinin də qarşısında mühüm vəzifələr durur. Onlar yaxşı başa düşürlər ki, bu gün həyata keçirilən hər bir tədbirin düzgün aparılması, qaydasında yerinə yetirilməsi sabahkı bol məhsulun etibarlı əsasını, möhkəm bünövrəsini qoyur. Belə bir vaxtda aqrar sahədə çalışanların ixtisaslı mütəxəssislərin fikirlərinə, məsləhətlərinə ciddi ehtiyacları duyulur. Elə bilirik aşağıdakı göstərişlər, məsləhətlər də faydasız olmayacaq.**

## DONDURMA ŞUMU

Yola saldığımız 2017-ci ildə rayonumuzda əvvəlki illə müqayisədə xeyli artıq — 9000 tondan artıq "ağ qızıl" istehsal edilmişdir. Pambıqçılarımız cari ildə də tarlalardan bol məhsul əldə etmək əzmindədirlər. Bu məqsədə nail olmaq üçün onlar qış becərmə tədbirlərini də düzgün, yüksək səviyyədə yerinə yetirməlidirlər.

Pambıq və digər kənd təsərrüfatı bitkiləri əkilmiş sahələrdən yüksək məhsul alınmasında əsas şərtlərdən biri də torpağın narın hissəciklərə parçalanmasını, torpaqda rütubətin toplanmasını, qorunmasını, yuma, arat və digər aqrotexniki tədbirlərin səmərəsinin artırılmasını təmin edən dondurma şumunun vaxtında və keyfiyyətlə aparılmasıdır. Bu həm də səpinin optimal müddətdə aparılmasına imkan yaradır, bitkilərin böyüməsini və inkişafını sürətləndirir, alaq otlarına qarşı çox əhəmiyyətlidir. Çoxillik alaqlarla kimyəvi mübarizədə herbisidlər daha səmərəlidir. Sahələr bütünlüklə sirayətlənibsə Txan-90 herbisidi şumdan qabaq traktor çiləyiciləri ilə hektara 90-100 kiloqram olmaqla bütün sahəyə, çoxillik alaqlar azdırsa seçmə üsulla yalnız sirayətlənmiş sahəyə çilənir. Herbisidin şumdan 10-15 gün əvvəl verilməsi daha yaxşı nəticə verir. Herbisidin şumdan əvvəl verilməsi mümkün olmasa şumdan sonra, qış aratından və ya torpağın zərərli duzlardan yuyulmasından əvvəl şum üzərinə çilənib 10-12 sm dərinlikdə malalanır. Şumdan əvvəl sahələrə 400 kq fosfor, 50 kq kalium gübrəsi və 15-20 ton peyin verilir. Şum hazırda istehsal olunan kotanlarla 30-32 sm dərinlikdə aparılır. Bu zaman torpağın qida maddələri ilə zəngin olan 10-15 sm qalınlığında üst təbəqəsi aşağı çevrilir, torpağın qida maddələri az olan 15-20 santimetrlik aşağı təbəqəsi səthə qaldırılır və becərmə, gübrələmə və digər amillərin təsiri nəticəsində bu qat torpağın münbit təbəqəsinə çevrilir. Bu zaman alaq otlarının dərinə düşən toxumları və kökləri çürüyərək cücərə bilmir.

Yonca altından çıxmış sahələrdə toplanmış humus və kök qalıqlarının çox hissəsi torpağın 10-15 sm dərinliyində yerləşir və əkin qatının daha aşağı laylarında bunun miqdarı aşağı düşür. Torpaqda yaranmış münbitliyi qorumaq üçün əsas şumun dərinliyi növbələşməlidir. Birinci il şum 35 sm, 2 və 3-cü il 30 sm, 4-cü il 32 sm dərinlikdə aparılanda növbəli əkinlərin bir dövriyyəsində humusun miqdarı və pambığın məhsuldarlığı artır.

Yonca sahələri torpaqda optimal nəmlik olduqda şumlanmalıdır. Torpaq həddindən artıq quruyubsa şumqabağı suvarılmalıdır. Şum zamanı sahənin hər yeri eyni dərinlikdə şumlanmalı, şum layları normal çevrilməli, mineral və üzvi gübrələr, bitki qalıqları torpağa yaxşı basdırılmalı, sahədə şumlanmamış yerlər qalmamalıdır. Şumun səthi xırda dalğavari olmaqla sahədə şırımların və bazilərin əmələ gəlməsinə yol verilməməlidir. Şum zamanı kotanın yedəyinin düzgün qoşulması vacibdir. Elm, təcrübə sübut edir ki, dondurma şumu yüksək məhsuldarlığın əsasıdır. Bu tədbir aqrotexniki tələblərə uyğun aparılarsa hektardan 15-20 faiz artıq məhsul götürmək mümkündür.

## CARİ YUMA VƏ ARAT

Muğan Salyan, Mil-Qarabağ və Şirvan bölgələrinin şorlaşmış torpaqlarının duzu yuyulandan sonra bu torpaqlar münbit olduğuna görə yüksək məhsul verir. Cari yuma hamarlanmış və şumlanmış sahələrdə aparılır. Bundan sonra sahələr malalanır. 50-60 sm hündürlükdə tirələr düzəldilir. Sahələrləklərə bölünür. Sahənin səthi yaxşı hamarlandıqda yuma zamanıləklərin hər yerində su bərabər yayılır. Bu isə duzların yaxşı yuyulmasına səbəb olur. Ləklərdə torpaq səthinin ən yüksək və ən aşağı nöqtələri arasındakı məsafə 10 sm-dən çox olmamalıdır. Yuma zamanı su sahələrə bərabər miqdarda verilməli, bu iş gecə-gündüz davam etdirilməlidir. Torpaq yetişdikdə müvəqqəti arxlar, kiçik direnlər doldurulmalı, torpağın səthi hamarlanmalıdır. Torpaqda rütubət ehtiyatı yaradılması, duzların aşağı qatlaradək yuyulması, pambıq sovkası puplarının məhv edilməsi, pambıq cücərtilərinin erkən və bir vaxtda alınması üçün torpağın xüsusiyyətlərindən, qrunt suların yerləşmə dərinliyindən asılı olaraq qış, yaxud yaz aratı aparılır. Belə ki, qış aratı üçün hektara 1500-1800 kubmetr, qalan torpaqlarda isə yaz aratı üçün hektara 1300-1500 kubmetrdi. Aratın yuma əhəmiyyətini də nəzərə alaraq hər hektara 2500-3000 kubmetr və daha çox su verilə bilər. Bütün sahə bərabər nəmlənməlidir.

Bütün bunlara düzgün əməl olunsa, şübhəsiz ki, bunlar məhsuldarlığın yüksəldilməsinə öz müsbət təsirini göstərər. Ona görə torpağa çiyid səpməyə hazırlaşan hər kəs qeyd olunanları diqqətlə nəzərə almalı, bu işlərin keyfiyyətlə, aqrotexniki tələblər əsasında həyata keçirilməsinə çalışmalıdır.

**Elman MƏMMƏDOV,**
**rayon kənd təsərrüfatı idarəsi bitkiçilik sektorunun məsləhətçisi**

# Rayonda kənd təsərrüfatı məhsullarının istehsalı dinamik inkişaf edir



**Şahin MƏNƏFOV,**
**rayon statistika idarəsinin rəisi**

Son illər ölkədə həyata keçirilən uğurlu islahatlar sosial-iqtisadi inkişafın sürətlənməsinə, iqtisadiyyatın neft amilindən asılılığının azalmasına geniş imkanlar yaratmışdır. İndi rayonun sosial-iqtisadi həyatının elə bir sahəsi yoxdur ki, orada sürətli inkişaf və tərəqqi meyilləri nəzərə çarpmasın.

2017-ci ildə ümumi məhsulun həcmində qeyri-dövlət bölməsinin payı 75,2 faizə çatmış və əvvəlki ilin müvafiq dövrünə nisbətən 22,9 faiz artım əldə olunmuşdur. İqtisadiyyatın şaxələndirilməsi bütün digər sahələr kimi aqrar bölmənin də inkişaf etdirilməsi üçün əlverişli imkanlar yaratmışdır. Məhz bunun nəticəsidir ki, kənd təsərrüfatı getdikcə rayonda iqtisadiyyatın əsas prioritet sahələrindən birinə çevrilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ərzaq təhlükəsizliyi ilə bağlı təsdiq olunmuş Dövlət Proqramı çox mühüm əhəmiyyət kəsb edir. Ötən müddətdə proqramın icrası ilə bağlı həyata keçirilmiş mühüm tədbirlər nəticəsində rayonun kənd təsərrüfatında əhəmiyyətli artım baş vermiş, yerli istehsal hesabına daxili bazarda məhsul bolluğu müşahidə olunmuşdur. Aqrar sahənin inkişafına dövlət dəstəyinin xeyli artması, kənd təsərrüfatında sahibkarlıq hissinin gücləndirilməsi istiqamətində bir sıra stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi buna yeni təkan vermişdir. Təkcə onu qeyd etmək kifayətdir ki, uzun illərdir Azərbaycanda fermerlərə güzəştli kreditlər ayrılır, "Aqrolizinq" tərəfindən gətirilən texnikalar əlverişli şərtlərlə sahibkarlara icarəyə verilir. Bundan əlavə, aqrar sahədə istehsalçı marağını artırmaq məqsədilə gübrələr və yanacaq da son dərəcə əlverişli şərtlər əsasında paylanılır. Ən başlıcası isə, uzun illərdir ki, fermerlər torpaq vergisi istisna olmaqla bütün digər vergilərdən azaddırlar. Dövlət başçımızın təbirincə desək, dünyada ikinci belə ölkə tapılmaz ki, orada fermerlərə bu qədər şərait yaradılsın, onlara belə güzəştlər edilsin. Bütün bunlar isə, heç şübhəsiz, ölkədə kənd təsərrüfatının daha da inkişaf etdirilməsinə, daxili bazarda məhsul bolluğunun təmin edilməsinə hesablanmış addımlardır.

Prezident İlham Əliyevin 2014-cü il iyun ayının 4-də "Kənd təsərrüfatı məhsulları istehsalçılarının kənd təsərrüfatı texnikası ilə təminatına əlavə dəstək haqqında" imzaladığı sərəncam isə bu sahəyə göstərilən dövlət qayğısının daha bir parlaq nümunəsidir.

2017-ci ildə rayonda 100140,6 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal ollunmuş və əvvəlki illə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalı 31,6 faiz, o cümlədən heyvandarlıq məhsulları 40,9 faiz, bitkiçilik məhsulları istehsalı isə 24,3 faiz artmışdır. Hesabat ilində rayonda 118750,7 ton dənli bitki (qarğıdalı istisna olmaqla) istehsal olunmuş və hər hektardan orta hesabla 23,2 sentner məhsul götürülmüşdür. 2017-ci ildə təsərrüfatlarda 1812,3 ton tərəvəz məhsulu, 1497,8 ton kartof, 8019,7 ton bostan məhsulu, 2263,5 ton meyvə və giləmeyvə, 206,2 ton üzüm istehsal olunmuş və sahələrdən 9096,5 ton pambıq toplanmışdır.

Kənd təsərrüfatının əsas sahəsi sayılan heyvandarlığın inkişaf etdirilməsi üçün də bir sıra mühüm işlər həyata keçirilmişdir. Ötən il ərzində sürünün cins tərkibinin yaxşılaşdırılması istiqamətində həyata keçirilmiş tədbirlər heyvanların məhsuldarlığının yüksəlməsinə və mal-qaranın baş sayının, eləcə də bu sahədə məhsul istehsalının artmasına səbəb olmuşdur. Belə ki, 2017-ci ildə 14664,6 ton diri çəkidə ət, 24508,0 ton süd, 7920 min ədəd yumurta və 280,2 ton yun istehsal edilmişdir. 2016-cı illə müqayisdə ət istehsalı 12,1 faiz, süd istehsalı 0,4 faiz, yumurta istehsalı 7,2 faiz, yun istehsalı isə 4,5 faiz artmışdır.

Əhalinin kənd təsərrüfatı ilə məşğul olmaları üçün dövlət tərəfindən daim dəstək göstərilir, aqroservislər yaradılır, kreditlər verilir və Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə vəsait ayrılır.

# GÜNDOĞAR

№ 3-4-5-6 (6667) 14 fevral 2018-ci il

SON SƏHİFƏ


# MİLLİ QƏHRƏMAN ANILDI

Rayon mərkəzləşdirilmiş kitabxana sistemində gənclərin və yeniyetmələrin hərbi vətənpərvərlik tərbiyəsi ilə bağlı maraqlı tədbirlər təşkil olunur. Fevralın 7-də burada keçirilən növbəti tədbir də bu mövzuya həsr olunmuşdu. Bu dəfə oxucular Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun anadan olmasının 30 illiyi münasibətilə onun ölməz ruhunun işığına yığışmışdılar.



Rayon mərkəzləşdirilmiş kitabxana sisteminin direktor müavini Gülxanım Abdulhüseynova tədbiri giriş sözü ilə açaraq gələn qonaqları salamladı, qəhrəmanın qısa ömür yolundan ətraflı danışdı, onun göstərdiyi qəhrəmanlıqlar barədə məlumat verdi. Qeyd etdi ki, biz torpaqlarımızın qorunmasından ötrü şirin canından keçən bütün qəhrəmanların, eləcə də anadan olmasının 30 illiyinə toplaşdığımız Mübariz İbrahimovun xatirəsini həmişə əziz tutur, vaxtaşırı onların məzarları üstünə, ata yurdlarına ziyarətə gedir, igidliklərini oxucularımız arasında təbliğ edirik. Ötən il Mübariz İbrahimovun böyüyüb boya-başa çatdığı Biləsuvar rayonunun Əliabad kəndinə də bu məqsədlə getmişdik, qəhrəmanın atası Ağakərim kişinin xatirələrini dinləmişdik.

Sonra zalda qoyulmuş geniş monitorda qəhrəmanın həyatının müxtəlif anlarını və kitabxana kollektivinin ötən il Əliabad kəndinə etdiyi səfəri əks etdirən kadrlar nümayiş etdirildi.

Mübariz İbrahimovun böyük qəhrəmanlığı, kitablara sığmayan şücaətləri neçə-neçə yaradıcı ziyalını riqqətə gətirib, bu qəhrəmanlığa neçə şeir qoşulub, poema həsr edilib, mahnı bəstələnib. Mübarizə şeir həsr edən şairələrdən biri də Şirinnaz Məmmədrəhimovadır. Şirinnaz xanım tanınmış yazıçı Elxan Elatlının Mübariz İbrahimova həsr etdiyi "Qisas gecəsi" romanının motivləri əsasında eyni adlı poema qələmə alıb. Tədbirdə şəhər 3 saylı tam orta məktəbinin şagirdləri həmin poemanı ədəbi kompozisiya şəklində əzbərdən söylədilər. Şəhər 1 və 4 saylı tam orta məktəblərinin şagirdləri də qəhrəmana həsr olunmuş ədəbi kompozisiya səsləndirdilər, Vətənə, torpağa, qəhrəmanlığa dair şeirlər söylədilər. Şəhər 4 saylı tam orta məktəbinin 7-ci sinif şagirdi Elvin Gözəlov isə özünün Mübariz İbrahimovun qəhrəmanlığına həsr etdiyi şeirini söylədi.

Tədbirdə iştirak edən qonaqlar, kitabxananın işçiləri də çıxışlar etdilər, belə tədbirlərin gənc nəslin qəhrəmanlıq ruhunda tərbiyə olunmasında mühüm rol oynadığını söylədilər.

Sonda iştirakçılar fikir mübadiləsi apardılar, xatirə şəkilləri çəkdirdilər.

**Bədirə HƏSƏNQIZI,**
**kitabxananın işçisi**

# YADDAŞLARDA QALAN YUBİLEY TƏDBİRİ

Böyük ənənələrə, müsbət göstəricilərə malik Tofiq İsmayılov adına Mirqurbanlı kənd tam orta məktəbi özünəməxsus yol keçib, rayonda həmişə sayılıb-seçilib. Bu məktəbin tarixində elə intellektli, istedadlı, təcrübəli müəllimlər, işıqlı şəxsiyyətlər olub ki, onların əldə etdikləri nailiyyətlər, keçdikləri həyat yolu hər birimiz üçün böyük bir məktəb, bir örnək, bir nümunə sayıla bilər. Məktəbin tarixində iz qoyan, adı həmişə hörmətlə çəkilən, xoş ovqatla yad edilən belə işıqlı şəxslərdən biri də bir vaxtlar bu məktəbin direktoru vəzifəsində çalışmış təcrübəli müəllim, peşəkar idman ustası, ləyaqətli ziyalı, səmimi insan Hüseynbala Əbil oğlu Qasımov olub. Bu günlərdə həmin məktəbdə keçirilən təntənəli tədbir də məhz bu işıqlı şəxsin, Hüseynbala müəllimin 80 illik yubileyinə həsr olunmuşdu.

Yubiley tədbirini məktəbin direktoru İlham Həsənov açaraq qonaqları, mərasim iştirakçılarını salamladı, məktəbin keçib gəldiyi inkişaf yollarından, bu günkü nailiyyətlərindən danışdı. Qeyd etdi ki, Tofiq İsmayılov adına Mirqurbanlı kənd tam orta məktəbi böyük ənənələrə, yüksək nəticələrə malik təhsil ocağıdır. Vaxtı ilə bu məktəbdə dərs demiş Miryaqub Ağalarovun, Babaş Quliyevin, Ələkbər Əliyevin, Akif Cəfərovun, Tədbir Mahmudovun, Əzizə Əhmədovanın, Ənvər Əhmədovun, Əli Əmənovun, Əli İbrahimovun, Süsən Abasovanın, Əlibayram Quliyevin, Əvəz Qurbanovun, Pirverdi Babayevin, Larisa müəllimənin, Şəfiqə İsmayılovanın, Roza Səmədovanın, Gülağa Səmədovun, Ağayar Dadaşovun, Qasım Qasımovun, Səlim Əmirovun, Hacıbala Abdullayevin və neçə-neçə başqalarının adları bu gün də hörmətlə çəkilir.

Sonra vaxtilə bu məktəbdə işləyib dünyasını dəyişmiş müəllimlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Yubiley tədbirini aparmaq üçün söz məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Cəvahir Məmmədovaya verildi. Cəvahir müəllimə tədbir iştirakçılarını səmimiyyətlə salamladı, 80 illik yubileyi qeyd olunan Hüseynbala Qasımovun həyat yolundan danışdı, onun ömür kitabından səhifələr vərəqlədi, məktəb illərindən, pedaqoji fəaliyyətindən söz açdı.

Gələn qonaqlar da Hüseynbala müəllimin haqqında xatirələrini bölüşdülər, xoş sözlər söylədilər. Uzun illər rayonun təhsil sisteminə rəhbərlik etmiş qocaman ziyalı, respublikanın Əməkdar müəllimi Tədbir Mahmudov Hüseynbala Qasımovun öz işinin, peşəsinin əsl vurğunu olduğunu söylədi, onu bacarıqlı idman mütəxəssisi kimi səciyyələndirdi. Qeyd etdi ki, Hüseynbala müəllim heç vaxt unudulmayan, həmişə xoş ovqatla xatırlanan, yada salınan insanlardandır.

Rayon təhsil şöbəsinin nümayəndəsi Məhərrəm Quliyevin çıxışı maraqla qarşılandı. O, tədbir iştirakçılarını salamlayaraq belə bir yubileyin təşkili üçün məktəb kollektivinə razılığını bildirdi, Hüseynbala müəllimin idman sahəsindəki yorulmaz fəaliyyətindən söhbət açdı, onun təşkilatçılıq qabiliyyətinin yüksək olduğunu göstərdi. Qeyd etdi ki, insan həyata bir dəfə gəlir, həyatda bir dəfə yaşayır, amma hamı burada iz qoya bilmir. Hüseynbala müəllim isə həyatda xoş izləri, gözəl xatirələri qalan insanlardandır.



Maraqlı çıxışlardan biri də Hüseynbala müəllimin yaxın qohumu, keçmiş iş yoldaşı, uzun illər Azərbaycan Xarici Dillər İnstitutunda fransız dilindən dərs demiş təcrübəli təhsil işçisi Ənvər Əhmədovun çıxışı oldu. O, yubiley tədbirinin hazırlanmasında əməyi, zəhməti olan hər bir kəsə, məktəbin rəhbərliyinə, pedaqoji kollektivə dərin təşəkkürünü çatdırdı, Hüseynbala müəllimin yaxşı idman mütəxəssisi, yaxşı müəllim və yaxşı dost olduğunu söylədi, onun hər kəsə yüksək qayğı ilə yanaşdığını, nəcib və nurlu bir insan olduğunu bildirdi. Dedi ki, Hüseynbala müəllimin işi iş, dostlduğu dostluq idi. Belə insanların xatirəsinin yaşadılması, gənc nəslə çatdırılması vacib məsələdir.

Tədbirdə çıxış edən qonaqlar arasında Hüseynbala müəllimi yaxından tanıyan Qasım Qasımovun, Mirqurbanlı kəndində doğulub boya-başa çatmış, buradakı orta məktəbdə təhsil almış, uzun illər ərzində rayonun müxtəlif təhsil ocaqlarında məktəb direktoru, dərs hissə müdiri vəzifələrində çalışmış Tahir Əsədovun xatirələri də maraqla dinlənildi. Onlar da belə bir şəxsin xatirəsini əziz tutduqlarına, 80 illik yubileyini təntənə ilə qeyd etdiklərinə görə pedaqoji kollektivə təşəkkürlərini bildirdilər.

Tədbirdə məktəbin şagirdləri də çıxış etdilər. V-a sinif şagirdi Sənubər Səfərovanın söylədiyi "Müəllim" şeiri məclisə yeni bir ovqat gətirdi, iştirakçılar tərəfindən alqışlarla qarşılandı.

Maraqla izlənilən məqamlardan biri də "Olimpiya himni"nin sədaları altında zalda qoyulmuş monitorda Hüseynbala müəllimin həyatının, fəaliyyətinin müxtəlif anlarını, müxtəlif dövrlərini əks etdirən fotoşəkillərin nümayişi oldu. Əziz xatirəyə çevrilən bu şəkillərdə bütöv bir ömrün səhifələri vərəqlənir, böyük bir həyatın ayrı-ayrı anları sanki dil açıb danışırdı.

Daha sonra məktəbin bədən tərbiyəsi və idman müəllimi Hüseynqulu Fərəcov "Hüseynbala Qasımov — 80" devizi altında keçirilən idman yarışlarının startını elan etdi. Bu deviz altında V — XI siniflər arasında keçirilən dama yarışlarının ilkin mərhələsi yaddaqalan oldu. Yarışın qaliblərinə hədiyyələr təqdim edildi.

Yubiley mərasimində Hüseynbala müəllimin övladları — oğlanları Əbil və Elçin, qızları Gülüş və Gülnarə, gəlini Minə xanım, yaxınları Teyyub, İman və başqaları da iştirak edirdilər. Ailə üzvləri adından çıxış edən Əbil Qasımov atası Hüseynbala müəllimin barəsində xatirələrini söylədi, onun 80 illik yubiley mərasiminin keçirilməsində zəhməti olan insanlara təşəkkürünü çatdırdı.

Sonda məktəbin direktoru İlham Həsənov 80 illik yubileyi qeyd edilən Hüseynbala Qasımovun xeyirxah əməllərinin bu gün də yaşadığını bildirdi, yubiley mərasimində iştirak edənlərə bir daha təşəkkürünü çatdırdı. Bildirdi ki, məktəbin pedaqoji kollektivi keçmiş ənənələrə bundan sonra da sadiq qalacaq, gənc nəslin təlim-tərbiyəsi üçün əlindən gələni əsirgəməyəcək.

Tədbir iştirakçıları ilə çəkilən çoxlu şəkillər mərasimdən xoş xatirə kimi qaldı.

**Zaur ƏSGƏROV,**
**məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi**

# POEZİYA GUŞƏSİ

## BƏY TƏRİFİ

*Nə gözəldir qızıl gülün butası,*
*Gəlsin xələt versin bəyin atası!*
*Su üstündə sonaların sonası,*
*Gəlsin xələt versin bəyin anası!*
*Görüm, a bəy, toyun mübarək olsun,*
*Sağdışın, solduşun, elin var olsun!*

Nə vaxt səslənərdi bu gözəl nəğmə,
Ana təbiətin yatan vaxtında.
Dağlara, bağlara sükut çökəndə,
Səsin düz Allaha çatan vaxtında.
Bəy tərif olardı gecə yarısı,
Mələklər bu səsə şahid olardı,
Atanın fərəhdən coşardı qəlbi,
Ananın sevincdən gözü dolardı.
Baxardı şəst ilə bəyin qardaşı,
Bacı ayaqyalın rəqs eləyərdi.
Bu gözəl nəğmənin səadət payı
Bir elə, elata bəs eləyərdi.
Niyə itdi, batdı, unuduldu bəs,
Niyə məclislərdə yeri dar oldu?
Bəy-gəlin qol-qola şampan içdilər,
Allahla danışmaq ixtisar oldu.
Duvaqsız gəlinlər, tərifsiz bəylər
Desəm ki, pis deyil, bu gerçək olmaz.
Desələr də Allah mübarək etsin,
Vallah, belə toylar mübarək olmaz.
Bu necə geyimdir gəlin geyinib,
Baxıb nə deyərdi Nigarla Həcər?
Avropa deyirik, amma Avropa
Bizim yanımızda qələt eləyər.
Fırladır hamını qloballaşma,
Dünya dəyişilib, olub baş-ayaq.
Bəyin stoluna güzgü yerinə
Bəlkə bir fırlanan qlobus qoyaq?!
Artıb boşanmalar söyləyir hamı,
Dost olan nəsillər düşmənə dönür,
Bircə boşanmanın aqibətindən
Yüz ocaq qaralır, yüz işıq sönür.
Hanı allı-güllü toy xələtləri,
Niyə bəy qoluna dolanmır indi?
Hamı yaxasını çəkir kənara,
Deyir bütün günah zəmanənindir.
Zəmanə qışqırır: "Yalan deyirsiz,
Xələt də sizindir, qələt də sizin.
Sizindir toylarda diskatekalar,
Bu gün-sabah olar balet də sizin."
Hanı o Allaha çatan səs, səda:
"Göydə bir ulduz var, adı Talıbdı!"
O gözəl nəğmənin, səsin dalınca
Göydə Allahın da gözü qalıbdı.
"Bu yollardan gəlib keçər atlılar,
Gümüş nallı atları qanadlılar, -
Səndən xələt istəməzdim, müəllim,
O dostların səni mənə satdılar!.."
...Bilməm necə yazdım mən bu nəğməni,
Bir də yazmaq üçün möhlət istərəm.
Bəndənin xələti bəndənin olsun,
Ya Allah, mən səndən xələt istərəm!..

**Zabil PƏRVİZ**

## BU SEVDA

Həsrətin yenə də yandırır məni,
Mən elə bilirdim sönüb bu sevda.
Yenə də əriyir sənsiz ürəyim,
Sanırdım qəlbimdə donub bu sevda.
Ayrılıq bu hissi dərgiləyirmiş,
Hicran sədlərini hörgüləyirmiş,
Nə vaxtdan içimdə mürgüləyirmiş,
Bir mələr quzuya dönüb bu sevda.
Əritdi içimdə buzu ayrılıq,
Gətirdi könlümə yazı ayrılıq,
Əhsən, qovuşdurdu bizi ayrılıq,
Yenə öz taxtına qonub bu sevda.

## GƏLƏRƏM

Məcnun gözlərimin Leyli ovusan,
Sevən ürəyimin od-alovusan.
Bir kəlmə xoş sözlə məni ovutsan,
Sən gələn imana, dinə gələrəm.
Bir ürkək baxışla duyulsa könlüm,
Sevgi sellərində yuyulsa könlüm,
Hicran xəncəriylə ovulsa könlüm,
O ümid həsrətli dənə gələrəm.
Bir yolluq "hə" söylə yanım şam kimi,
Titrətmə qəlbimi sarı sim kimi,
De, belə get-gələ salıb kim-kimi,
Yüz dəfə gəlmişəm, yenə gələrəm.

## SƏNİN MƏHƏBBƏTİN

Gözümdə sevinc yaşıdır
Sənin məhəbbətin, gülüm.
Başımda şahlıq quşudur
Sənin məhəbbətin, gülüm.
Çətin sınaqlardan keçib,
Əhd bulağından su içib,
Qəlbimi ünvanı seçib
Sənin məhəbbətin, gülüm.
Son qoyubdur həsrətimə,
Əzabıma, möhnətimə,
Qanad gərib ülfətimə,
Sənin məhəbbətin, gülüm.
Yaşamışam necə sənsiz,
Ömrüm keçib becə sənsiz...
Dönərdi bir heçə sənsiz
Sənin məhəbbətin, gülüm.

**Müzəffər MƏZAHİM**

## DÖNƏYDİM

Bağbanı olaydım sən gəzən bağın,
Olaydı qarşıma hər gün çıxmağın.
Gözünə sataşan, dəyən budağın
Üstündə oxuyan quşa dönəydim.
Görürəm yalqızsan, ay ağzı püstə,
Həbi özgədən yox, gəl məndən istə.
O oğrun baxışlı gözünün üstə
Kamana dönəydim, qaşa dönəydim.
Həmdəmim olaydı o xoş avazın,
Qismətim olaydı o işvə-nazın.
Həyətə açılan ev qapınızın
Ağzına hörülən daşa dönəydim.
Könlüm vəcdə gəlir səni ananda,
İstəyir baş çəkə, ola yanında.
Dodağa təbəssüm, sevinc qonanda
Qara gözlərində yaşa dönəydim.
Sənsizlik dərd olub, qəm olub məndə,
Bağrımın başını salıb kəməndə.
Bir yerə səninlə çıxıb gəzəndə
Geri dönəndə də qoşa dönəydim.

## NAĞIL

Yadıma qəribə bir nağıl düşdü,
Nahaq nağıl dedim bu həqiqətə.
Eşitcək nağılı hamı gülüşdü,
Mən isə utanıb qaçdım xəlvətə.
Böyüyüb o nağıl, kamala dolub,
Şirnisi qalıbdır şirinliyində.
Dönübdür nağıllar nağılı olub,
Yaşayır qəlbimin dərinliyində.
Yaşadı mənimlə bir xeyli il o,
Nə ona tay axtar, nə ona bab gəz.
Payız gecəsinə körpü deyil o,
Danışmaq istəsən dəqiqə çəkməz.
Deyirlər biri var, biri yox idi,
Bir nənəm olubdur — köksü nağıllı.
O, nağıl deyəndə hamı tox idi,
Həm də ki, olubdur hamı ağıllı.
Nağılın birində qonşu qızla mən
Bir gün bu tilsimi birlikdə açdıq,
Həmin gün bir alma düşmüşdü göydən,
Onu da qonşu qız götürüb qaçdı.
Mən ona çatmadım, dırmaşdı dama,
Sanki çəpiş idi, bir dəcəl çəpiş.
Ala bilməsəm də almanı, amma
O gün yanağından götürdüm bir diş.
O çağdan deyilir bu nağıl, amma
Nə belə nağıl var, nə belə alma.

## O VAXT

Arzular, istəklər başımı qatar,
Yaşamaq eşqiylə inamım artar.
Qəlbim nə dincələr, nə də ki, yatar
Sən bizim küçədən gəlib keçən vaxt.
Gedən yollarıma duman, çən düşər,
Varsa nə gileyim, sözümdən düşər.
Gördüyüm gözəllər gözümdən düşər
Mən səni bəyənib, səni sevən vaxt.

**Atamalı TALIBOĞLU**

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Neftçala RPŞ polisə ictimai dəstək əməkdaşı (mülki) vəzifəsinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə tam orta təhsil almış, Silahlı Qüvvələrdə həqiqi hərbi xidmət müddətini başa vurmuş, boyu 180 sm-dən aşağı, yaşı isə 23-dən yuxarı olmayan və "Azərbaycan Republikası Daxili İşlər orqanında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş digər şərtlərə cavab verən Azərbaycan Respublikası vətəndaşları iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidir:

- Şəxsiyət vəsiqəsi;
- Tam orta təhsil haqqında attestat;
- Hərbi bilet;
- Əmək kitabçası (olanlar üçün).

Əlavə məlumat almaq istəyənlər Neftçala Rayon Polis Şöbəsinə müraciət edə bilərlər.

* * *

**Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik cənab Ramil Usubov tərəfindən cari ilin fevral ayının 24-də Şirvan şəhərində bölgə üzrə vətəndaşların qəbulunun geçirilməsi nəzərdə tutulmuşdur.**

**Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər. Qəbula yazılmaq istəyən vətəndaşlar Neftçala Rayon Polis Şöbəsinə müraciət edə bilərlər.**

**Əlaqə telefonu: 3-31-49; 3-10-67; 3-42-52**

**Neftçala Rayon**
**Polis Şöbəsinin rəhbərliyi**

# VERGİ ÖDƏYİCİLƏRININ NƏZƏRİNƏ!

2018-ci ilin 1 yanvar tarixindən etibarən statusundan asılı olmayaraq bütün vergi ödəyiciləri tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim edilməlidir.

Vergi Məcəlləsinə əsasən sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura "Onlayn rejimdə" Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən "Asan imza") vasitəsi ilə elektron qaydada tərtib edilərək və ya "Lazımi proqramlar"dan istifadə edilməklə "Oflayn rejimdə" tərtib edildikdən və elektron imza (o cümlədən "Asan imza") vasitəsi ilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

birinci dəfə yol verdikdə alınmış malların 10 faizi,

ikinci dəfə yol verdikdə 20 faizi,

üç və daha çox dəfə yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

**5 saylı Ərazi Vergilər İdarəsi**

# ALLAH RƏHMƏT ELƏSİN!

Neftçala Rayonu İcra Hakimiyyəti başçısı aparatının kollektivi Neftçala Sənaye Məhəlləsinin direktoru Nəriman Xəlilova, anası

**ŞƏKƏRXANIM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Gündoğar" qəzeti redaksiyasının kollektivi Neftçala Sənaye Məhəlləsinin direktoru Nəriman Xəlilova, anası

**ŞƏKƏRXANIM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**Baş redaktor H.Ə.ƏSƏDOV**

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız: Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38, Telefon: 3-44-03 Mobil: (050) 333-72-30, (055) 669-56-71 H/H: №AZ95AIIB33080019446400258164 VÖİN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və "BZ" mətbəəsində çap olunmuşdur. Dizayn Fərhad Ağayevin, fotolar Muradındır.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Tiraj: 650 Sifariş №6 Bir nömrənin qiyməti: 40 qəpik.